21 dekabr 2022 №94 (1967) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycanı ölməz musiqiləri ilə dünyaya tanıdan sənətkar

### Fikrət Əmirovun 100 illiyinə həsr olunan filmin təqdimatı keçirilib

Dünya şöhrətli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı Fikrət Əmirovun (1922-1984) 100 illik yubileyi ölkəmizdə və dünyada müxtəlif tədbirlərlə qeyd olunur. Dahi bəstəkarın milliliklə bəşəriliyin vəhdəti olan bənzərsiz sənəti haqqında söz açılır, ölməz musiqiləri səslənir, səhnə əsərləri nümayiş olunur.




Böyük sənətkarın yubileyi münasibətilə Mədəniyyət Nazirliyinin sifarişi əsasında "Azərbaycanfilm" kinostudiyasında "Fikrət Əmirov" adlı bədii-sənədli film çəkilib. Dekabrın 19-da Heydər Əliyev Sarayında "Fikrət Əmirov" filminin təqdimat mərasimi keçirilib.

Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov Fikrət Əmirovu Azərbaycan musiqi mədəniyyətinin ən görkəmli simalarından biri kimi səciyyələndirib. Bildirib ki, Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamla dahi bəstəkarın 100 illiyi silsilə tədbirlərlə qeyd edilir. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə əlamətdar yubileyə həsr olunan musiqi festivalı keçirilib. Festival çərçivəsində konsert və tamaşa nümayişləri Bakıda və bəstəkarın doğulduğu Gəncədə reallaşıb.

Fikrət Əmirovun dünya şöhrətli bəstəkar olduğunu deyən Anar Kərimov bildirib ki, onun əsərləri, xüsusilə "Min bir gecə" baleti bir sıra ölkələrin mötəbər konsert salonlarında məşhur kollektivlərin ifasında dönə-dönə səsləndirilir. Görkəmli musiqi xadiminin əsərləri uzun illərdir Azərbaycan mədəniyyətinin təbliğatçısı kimi çıxış edir. Bəstəkarın müxtəlif janrlarda yaratdığı nümunələr bütün dövrlərdə öz təravətini qoruyub saxlayacaq, musiqi mədəniyyətimizin qiymətli inciləri kimi hər zaman sevilə-sevilə dinləniləcək.

Film haqqında danışan Anar Kərimov ekran işinin Fikrət Əmirovun 100 illiyinə dəyərli töhfə olduğunu diqqət çatdırıb. Deyib ki, rejissor Vaqif Mustafayev filmi ərsəyə gətirən zaman sənətkarın ailə üzvləri ilə görüşüb, onların xatirələrini dinləyib, nəticədə Fikrət Əmirovun dünyaya göz açdığı mühiti, şəxsiyyət kimi yetişməsini və sənətini dolğunluğu ilə təqdim etməyə müvəffəq olub.

davamı səh. 2-də

## Mədəniyyət qardaşlıq münasibətlərində zəngin dəyərdir

Azərbaycan-Türkiyə Birgə Mədəniyyət Komissiyasının ikinci iclası dekabrın 19-da Bakıda keçirilib. Xatırladaq ki, komissiyanın birinci iclası ötən ilin 1 martında Ankarada gerçəkləşmişdi.

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev və Türkiyə mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircanın həmsədrliyi ilə keçirilən iclasda mədəni irs, kitabxana, musiqi, teatr, muzey və mədəni sərvətlər, kino və digər sahələr üzrə müzakirələr aparılıb.

Qonaqları salamlayan Vaqif Əliyev qeyd edib ki, Türkiyə və Azərbaycan qədim tarixə, ortaq dil, din və mədəni köklərə malikdirlər. Buna görə də ölkələrimiz arasında əməkdaşlıq yüksək səviyyədə inkişaf edib və rəngarəngliyi ilə fərqlənir: "İşğal altında olan torpaqlarımızın azad olunması, Azərbaycanın tarixi Zəfəri ilə başa çatmış 44 günlük Vətən müharibəsində Türkiyənin qardaş dəstəyi ölkələrimiz arasındakı sarsılmaz birliyin təzahürüdür. Hazırda işğaldan azad olunmuş torpaqlarımızda Prezident İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı quruculuq işləri aparılır. Bu prosesdə də, ilk növbədə, qardaş Türkiyədən misilsiz dəstək göstərilməkdədir. Azad edilmiş ərazilərdə mədəni irsimizin bərpasında, mədəniyyətimizin bu torpaqlarda yenidən bərqərar olmasında Türkiyənin yardımı xüsusi əhəmiyyət daşıyır".

Vaqif Əliyev bildirib ki, Azərbaycan və Türkiyənin dövlət başçılarının rəhbərliyi və iradəsi ilə iki ölkə arasında, bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əməkdaşlıq yüksələn xətlə inkişaf edir: "Bizim vəzifəmiz bu münasibətlərin daha da möhkəmlənməsinə nail olmaq, əməkdaşlıq əlaqələrini daha yuxarı mərhələlərə çatdırmağa töhfə verməkdir. Bu gün burada bir araya gəlməyimizin əsas səbəbi 1 mart 2021-ci il tarixində Ankarada Azərbaycan-Türkiyə Birgə Mədəniyyət Komissiyasının ilk iclasının nəticələrini müzakirə etmək və bu istiqamətdə davamlılığa nail olmaqdır. İki ölkənin müvafiq nazirliklərinin təmsil olunduğu komissiyanın ilk iclasından ötən müddətdə mədəni əməkdaşlıq daha da gücləndi, müvafiq qurumlar arasında əlaqələr dərinləşib. Birinci iclasın yekununda imzalanmış hesabatda yer alan məsələlərin bir çoxu öz həllini tapıb, bəziləri üzrində isə işlər davam etdirilir".




davamı səh. 3-də

## Qoy, həmişə teatr olsun!

Bilmirəm, bəlkə elə sizin də arzunuz budur. Xüsusən dünya adlı böyük səhnənin öz "əsərləri" ilə bacarmadığı, baş-ayaq olduğu bu ağır məqamda. Niyə? Çünki teatr, səhnə, ümumiyyətlə, incəsənət insanlığın əbədi sığınaq yeri, xilas bacası olub. Sənət özünün emosional gücünü bütün dövrlərdə göstərə bilir.

Azərbaycan xalqı da bineyi-qədimdən ruhunu, ovqatını sənətə və sənətlə kökləyib. Düzdür, bu bölgədə musiqi sənəti daha çox öndə olub. Amma teatr, səhnə sənətimiz də böyük yol keçib. Bu gün o yola, o klassik irsə nəzər salanda bunun bir daha əyani şahidi olursan.

10-16 dekabr tarixlərində Azərbaycan Teatr Xadimləri İttifaqının 125 illiyinə həsr olunmuş "Milli klassika" festivalı da bu irsə sədaqət məramı ilə təşkil olunmuşdu. Teatrların klassik tamaşa kimi festivala göndərdikləri nümunələrin hamısının bu meyara uyğun gəlməsini söyləyə bilməsək də, bütün hallarda festival, özü də klassikaya hesablanmış sənət müqayisəsi, yarışı maraqlı, alqışlanası addımdır. Məhz bu seçkinlik bu gün klassikadan imtina etməklə müasir dediyi formalara kortəbii özfəaliyyət səviyyəsində yanaşanlar üçün də yaxşı mizan-ölçü idi...



davamı səh. 5-də

## Laçın-Xankəndi yolunda dinc aksiyanın doqquzuncu günü geridə qaldı

Xəbər verdiyimiz kimi, Rusiya sülhməramlılarının müvəqqəti nəzarətindəki Azərbaycan ərazilərində ermənilər tərəfindən təbii sərvətlərin qanunsuz istismarına və aidiyyəti qurumların həmin ərazilərdə monitorinqinə imkan verilməməsinə etiraz olaraq QHT təmsilçiləri və ictimai fəallar dekabrın 12-dən Şuşa şəhəri yaxınlığında, Laçın-Xankəndi yolu üzərində dinc aksiya keçirirlər.



Ötən müddətdə ekoloji aksiya beynəlxalq miqyasda rezonans doğurub. Baxmayaraq ki, ayrı-ayrı ölkələrdə aksiyanın mahiyyətini kobud təhrif edən fikirlər səslənir. Azərbaycan XİN, eləcə də xaricdəki diplomatik korpus və diaspor təşkilatlarımız tərəfindən bu iddialara cavab verilir.

Bu arada Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva dinc aksiya ilə bağlı beynəlxalq qurumlara çağırış edib. Aksiyanın məqsədi diqqətə çatdırılaraq vurğulanır ki, Azərbaycan öz öhdəliklərinə sadiqlik nümayiş etdirir və hər hansı zəruri ehtiyaclar yaranarsa, öz ərazisində yaşayan erməni əsilli sakinlərə kömək göstərilməsinə hazır olduğunu da bəyan edib: "Televiziya kanalları üzərindən birbaşa yayımlardan da aşkar görünür ki, irəli sürülən iddialara baxmayaraq həmin yol açıqdır və ərazidə müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlıları dəhliz boyunca təminat yükünü daşıyırlar".

Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri də Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan torpaqlarında ekoloji terrora dinc etiraz olan aksiyasının məramını nəzərə çatdıran bəyanat yayıblar. Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycandakı Dağ Yəhudiləri İcması, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Bakıdakı Avropa Yəhudiləri İcması və Azərbaycandakı Alban-Udi Xristian Dini İcması adından yayılan bəyanatda bu aksiya ilə əlaqədar Ermənistan tərəfinin, o cümlədən erməni din xadimlərinin ictimai fikri yanlış istiqamətdə yönləndirmək cəhdləri pislənilir.

## Ömər Eldarov 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib

Görkəmli heykəltəraş, Xalq rəssamı, akademik Ömər Eldarov 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.

Prezident İlham Əliyev dekabrın 20-də bununla bağlı sərəncam imzalayıb.

səh. 2

## Mədəniyyət Nazirliyində Türkiyə nümayəndə heyəti ilə görüş

Mədəniyyət naziri Anar Kərimov dekabrın 19-da ölkəmizdə səfərdə olan Türkiyə mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları səmimi salamlayan Anar Kərimov Azərbaycanda keçirilən "Türk filmləri həftəsi"nin əhəmiyyətini qeyd edib, nümayiş olunan ekran əsərlərinin böyük maraqla qarşılandığını bildirib. Nazir bu kimi layihələrin, festivalların ənənə halını almasının mədəni əlaqələrimizin daha da dərinləşməsinə töhfə verəcəyini diqqətə çatdırıb.

səh. 2

## Sumqayıtda vətəndaşların qəbulu və müəssisələrlə tanışlıq

Dekabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov ayın 16-da Sumqayıt Şəhər Heydər Əliyev Mərkəzində vətəndaşların qəbulunu keçirib.

Mədəniyyət nazirinin budəfəki qəbulu Sumqayıt, Abşeron, Xızı, Qubadlı, Zəngilan, Şuşa şəhər və rayonlarını əhatə edib. Eyni zamanda qəbulda digər şəhər və rayonlardan gəlmiş vətəndaşların da müraciətləri dinlənilib.

Qəbuldan sonra Anar Kərimov Sumqayıtda bir sıra mədəniyyət ocaqlarına baş çəkib, müəssisələrin ümumi fəaliyyəti, cari vəziyyəti və maddi-texniki imkanları haqqında məlumat alıb.

səh. 4

## Azad edilmiş ərazilərdə mədəni irslə bağlı vəziyyət ICCROM və UNESCO-da diqqətə çatdırılıb

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərlinin rəhbərlik etdiyi nümayəndə heyəti Romada Mədəni Mülkiyyətin Mühafizəsi və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzdə (ICCROM) görüşlər keçirib və Parisdə UNESCO-nun Silahlı münaqişələr zamanı mədəni sərvətlərin qorunması üzrə Komitəsinin 17-ci sessiyasında iştirak edib.

Səfər çərçivəsində dekabrın 14-də Dövlət Xidmətinin rəisi ICCROM-un baş direktoru Vebber Ndoro ilə görüşüb. Azad Cəfərli işğaldan azad olunmuş ərazilərdə tarix-mədəniyyət abidələrinin monitorinqi, inventarlaşdırılması, bərpa-quruculuq işləri və infrastruktur layihələrinin icrası barədə məlumat verib. "Böyük Qayıdış" tədbirlərindən söz açılıb, bu xüsusda işğal zamanı dağıdılmış abidələrin qorunması və mühafizəsinə həssaslıqla yanaşıldığı qeyd edilib. ICCROM ilə birgə Azərbaycanda türkdilli dövlətlərin mütəxəssislərini cəlb etməklə abidələrin bərpası və qorunmasının idarə edilməsi, texniki, metodoloji bilik və bacarıqların artırılması üzrə təlimlərin təşkilinin mümkünlüyü diqqətə çatdırılıb.

davamı səh. 5-də

## Günahsızlığın kod adı...



Xəbər verdiyimiz kimi, 17-18 dekabrda Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında yeni səhnə əsərinin premyerası olub.

Tamaşanın müəllifi və quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, quruluşçu rəssamı Mustafa Mustafayev, bəstəkarı Azər Hacıəsgərli, işıq üzrə rəssamı Vadim Kuskovdur. Tamaşanın plastik həlli Ceyhun Dadaşova məxsusdur.

səh. 6

"Rauf Hacıyev – 100" festivalı çərçivəsində konsert



səh. 4

Mədəniyyət Nazirliyi ilə DİM arasında anlaşma memorandumu imzalanıb

səh. 5



"Muğam axşamları"nda Əhməd Bakıxanov yad olundu

səh. 5

# Bakıda lüks hotellərin daha bir brendi

## "The Ritz-Carlton Baku" hotelinin açılışı olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 19-da paytaxtda "The Ritz-Carlton Baku" hotelinin açılışında iştirak ediblər. Dövlətimizin başçısı və birinci xanım hoteldə yaradılan şəraitlə tanış olublar.

Məlumat verilib ki, hündürlüyü 130 metr olan bina 33 mərtəbəlidir. Binanın 14 mərtəbəsi hotel otaqları üçün nəzərdə tutulub, 15-ci mərtəbədən başlayaraq yuxarı hissədə isə rezidensiyalar və mənzillər yerləşir. "The Ritz-Carlton Baku" hotelində 190 geniş qonaq otağı, lüks mənzillər, restoranlar, fitnes və biznes mərkəzləri, müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans zalı var.

### "Şuşa"dan "Qubadlı"yadək zal və otaqlar

Binada korporativ toplantıların və digər tədbirlərin təşkili üçün də ideal şərait yaradılıb. "Şuşa" zalı işgüzar görüş və ya qala tədbirlərin keçirilməsi baxımından xüsusi məkandır. Bununla yanaşı, hoteldə "Qarabağ", eləcə də Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonası üzrə şəhər və rayonların adlarını daşıyan daha 11 iclas otağı yaradılıb. Bunlar "Ağdam", "Tərtər", "Xocalı", "Xankəndi", "Xocavənd", "Füzuli", "Cəbrayıl", "Qubadlı", "Zəngilan", "Kəlbəcər" və "Laçın" otaqlarıdır.

Binanın daxili dizaynı Azərbaycanın iqliminin, mədəniyyətinin, tarixinin müxtəlifliyini və zənginliyini əks etdirir. Hotelin memarlığında tarixin, incəsənətin,



mədəniyyətin və müasir tendensiyaların vəhdətinə xüsusi diqqət yetirilib.

Qeyd edək ki, Azərbaycanda qeyri-neft sektorunun aparıcı sahəsi kimi turizmin inkişafı başlıca prioritetlərdəndir. Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" bu sahəyə dövlət tərəfindən göstərilən diqqətin əyani təsdiqidir. Pandemiyanın yayıldığı 2020-ci ilədək hər il çox sayda turist ölkəmizə səfər edib, müasir turizm imkanlarından yararlanıb. Artıq dünyada olduğu kimi, ölkəmizdə də postpandemiya dövrü yaşanır. Bu isə öz növbəsində turist axınının artması ilə müşayiət olunur. Bu cür müasir və dünyaca məşhur hotel brendlərinin Azərbaycanda fəaliyyətə başlaması, şübhəsiz ki, postpandemiya dövründə turizmin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir.

# Ömər Eldarov 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib

Xalq rəssamı, akademik Ömər Eldarov 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.

Prezident İlham Əliyev dekabrın 20-də bununla bağlı sərəncam imzalayıb. Ömər Həsən oğlu Eldarov Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub.

Qeyd edək ki, dekabrın 21-də Ömər Eldarovun 95 yaşı tamam olur. Azərbaycan heykəltəraşlıq sənətinə bir çox dəyərli əsərlər bəxş etmiş sənətkar 20 ilə yaxındır Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına da rəhbərlik edir.

Ömər Eldarovu yubileyi və yüksək dövlət təltifi münasibətilə təbrik edirik.

# Milli Kitabxanada Əhməd Bakıxanovun 130 illiyi qeyd olunub

Dekabrın 20-də Milli Kitabxanada Xalq artisti, görkəmli tarzən Əhməd Bakıxanovun anadan olmasının 130 illik yubileyi ilə əlaqədar tədbir keçirilib.

Milli Kitabxananın direktoru Kərim Tahirov 1930-cu illərdən Azərbaycan Dövlət Konservatoriyasında, daha sonra Azərbaycan Dövlət Musiqi Məktəbində muğamdan dərs deyən, Azərbaycan Radiosu nəzdində Xalq çalğı alətləri ansamblının təşkilatçısı və rəhbəri olan Əhməd Bakıxanovun milli musiqi mədəniyyətimizə olan töhfələrindən danışıb.




Xalq artisti, tarzən Ramiz Quliyev tədbirin təşkilinə görə kitabxana rəhbərliyinə təşəkkür edərək deyib: "Əhməd Bakıxanovun bizə miras qoyduğu irsi, tarixi unutmaq olmaz. Tarın sütunlarından biri Sadıqcan, digərləri Qurban Pirimov və Mirzə Mansurov, biri isə Əhməd Bakıxanov olub. Əhməd Bakıxanovun təşkilatçısı və uzun illər ərzində rəhbəri olduğu Xalq çalğı alətləri ansamblı hazırda da onun adını daşıyır".

Xalq artisti, tarzən Zamiq Əliyev qeyd edib ki, Əhməd Bakıxanov və digər görkəmli tarzənlərimizdən gələn ənənəni davam etdirmək, tarın texnikasını dərindən öyrənmək, onu qorumaq, tarzən ordusu yetişdirmək və tarımızın bu gün sədasının dünyanın hər yerindən gəlməsini təmin etmək bizim ən ümdə vəzifəmizdir.

Əhməd Bakıxanovun oğlu, Xalq artisti, bəstəkar Tofiq Bakıxanov atasının 130 illik yubileyinin keçirilməsinə dair sərəncam imzaladığına görə Prezident İlham Əliyevə və muğamlarımızın qorunması istiqamətindəki əvəzsiz xidmətlərinə görə Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürünü bildirib.

Sonda tədbir iştirakçıları Əhməd Bakıxanovun 130 illiyi ilə bağlı təşkil olunmuş sərgiyə baxış keçiriblər.

# Dahi bəstəkarın yubileyi münasibətilə İsraildə konsert




Dünya şöhrətli Azərbaycan bəstəkarı, simfonik muğam janrının banisi, SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı Fikrət Əmirovun (1922-1984) 100 illik yubileyi ölkəmizdə və onun hüdudlarından kənarda müxtəlif tədbirlərlə – konsert və tamaşa nümayişləri ilə qeyd olunur.

Dahi bəstəkarın yubileyinə həsr olunan daha bir konsert dekabrın 25-də İsrailin Hayfa şəhərində təşkil ediləcək.

Şəhərin Krieger İncəsənət Mərkəzində reallaşacaq konsertdə Hayfa Simfonik Orkestrinin (dirijor: Xalq artisti Yalçın Adıgözəlov) müşayiətində Xalq artisti, pianoçu Murad Hüseynov çıxış edəcək.

Yubiley konsertinin proqramına Fikrət Əmirovun fortepiano əsərləri daxil edilib.

**Lalə**

# Mədəniyyət Nazirliyində Türkiyə nümayəndə heyəti ilə görüş

Mədəniyyət naziri Anar Kərimov dekabrın 19-da ölkəmizdə səfərdə olan Türkiyə mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları səmimi salamlayan Anar Kərimov Azərbaycanda keçirilən "Türk filmləri həftəsi"nin əhəmiyyətini qeyd edib, nümayiş olunan ekran əsərlərinin böyük maraqla qarşılandığını bildirib. Nazir bu kimi layihələrin, festivalların ənənə halını almasının mədəni əlaqələrimizin daha da dərinləşməsinə töhfə verəcəyini diqqətə çatdırıb.

Anar Kərimov dekabrın 19-da Bakıda Azərbaycan-Türkiyə Birgə Mədəniyyət Komissiyasının ikinci iclasının keçirilməsi və mədəniyyətin müxtəlif sahələrində əməkdaşlıqla bağlı əhəmiyyətli müzakirələrin aparılmasından məmnunluğunu bildirib.

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan birgə iki ölkənin mədəni əməkdaşlığı kontekstində komissiyaya böyük önəm verdiklərini deyib. Türkiyəli qonaq komissiyanın iclaslarının il ərzində iki dəfə keçirilməsi təklifini səsləndirib. Bildirib ki, konkret sahələr üzrə sıx şəkildə fikir mübadiləsi aparılması əməkdaşlığın dinamik inkişafına daha yaxşı töhfə verə bilər.



Söhbət zamanı birgə komissiya çərçivəsində muzey, kitabxana, mədəni irs və onun qorunması, təbliği ilə bağlı əməkdaşlıq məsələlərinə də toxunulub. Anar Kərimov qeyd edib ki, işğaldan azad olunmuş Azərbaycan ərazilərində Ermənistan tərəfindən vandalizmə məruz qalmış tarix-mədəniyyət abidələrinin bərpası və yenidən qurulması sahəsində Türkiyənin təcrübəsinə ehtiyac var. Bu sahədə fəaliyyət göstərən insanlar üçün qardaş ölkənin mütəxəssisləri tərəfindən treninqlərin keçirilməsi faydalı olardı. Nazir qeyd edib ki, muzey əşyalarının bərpa və konservasiyası, mədəni irsin ixracı və idxalı, bu prosesin tənzimlənməsi mexanizmi və digər məsələlərlə əlaqədar Türkiyə ilə əməkdaşlıqda maraqlıyıq.

Görüşdə Azərbaycanda yaradıcı sənayelərin inkişafı, eləcə də Yaradıcı Sənayelər Assosiasiyasının fəaliyyəti barədə söz açılıb, mədəni turizm sahələrinin inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Anar Kərimov hazırda işğaldan azad olunan ərazilərdə, eləcə də digər regionlarımızda aparılan arxeoloji qazıntılara türkiyəli mütəxəssislərin də cəlb olunduğunu bildirib. Deyib ki, bu sahədə ölkəmizdə insan resursları yetərli olsa da, müvafiq laboratoriyaların azlığı müşahidə olunur. Türkiyədə isə bu sahədə 10 laboratoriya mövcuddur və ölkəmizdə aparılan araşdırmaların nəticələrinin müəyyənləşdirilməsində bu imkanlardan istifadə edilir.

Bu ilin noyabrında ikincisi Bursada gerçəkləşən Dədə Qorqud Türk Dünyası Film Festivalından danışan Anar Kərimov festivala gənclərin daha çox maraq göstərməsinin məmnunluq doğurduğunu bildirib. Deyib ki, bu festival Türk dünyası kinosunun ölkələrimiz arasında daha yaxşı təbliği baxımından diqqətəlayiq layihədir.

Ahmet Misbah Demircan da sözügedən festivalı yüksək dəyərləndirib, gələcəkdə Dədə Qorqud Kino Akademiyasının yaradılması ilə bağlı təşəbbüslə çıxış edib. Bildirib ki, türk dövlətlərində kino nümayişinin vahid bir platforma üzərindən həyata keçirilməsi əhəmiyyətli olar. Nazir müavini, həmçinin Türk dünyası ölkələrini və xalqlarını əhatə edən kino məktəbinin açılması məsələsini də gündəmə gətirib. O, Azərbaycan və Türkiyənin bu layihənin əsas təşəbbüskarı kimi çıxış etməsinin önəmini vurğulayıb.

Daha sonra görüş qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi ilə davam edib.

# Azərbaycanı ölməz musiqiləri ilə dünyaya tanıdan sənətkar

## Fikrət Əmirovun 100 illiyinə həsr olunan filmin təqdimatı keçirilib

əvvəli səh. 1-də

Nazir Vaqif Mustafayev başda olmaqla filmin ərsəyə gəlməsində zəhməti olan hər kəsə təşəkkürünü bildirib.

Azərbaycanın dahi sənətkarı haqqında filmin təqdimatına qatılan Türkiyə mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan çıxışında kinonun təbliğat işində önəmli vasitə olduğunu bildirib. Qeyd edib ki, hər bir inkişafın təməlində mədəniyyət faktoru dayanır. Fikrət Əmirov da Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətləri olan şəxsiyyətlərdəndir.

O, görkəmli bəstəkarın 100 illiyinin Türkiyədə də geniş qeyd olunduğunu bildirib. Vurğulayıb ki, bu il "Türk dünyasının mədəniyyət paytaxtı" Bursada Fikrət Əmirovun 100 illiyi münasibətilə konsert proqramı təşkil olunub.

Sonra filmin ssenari müəllifi və quruluşçu rejissoru Xalq artisti Vaqif Mustafayev səhnəyə dəvət olunub. O, filmin ərsəyə gəlməsindən danışaraq dahi bəstəkarı ilk dəfə hələ uşaq olarkən musiqi məktəbinə qəbul zamanı gördüyünü, Fikrət Əmirovun onun musiqi duyumunu yoxladığını məmnunluqla xatırladıb: "Amma ağlıma gəlməzdi ki, zaman yetişər, mən böyük bəstəkarımız haqqında film çəkərəm. Buna görə özümü xoşbəxt hiss edirəm. Əvvəlki filmlərimdə olduğu kimi, burada da mövzuya səmimiyyətlə yanaşmışam".

Rejissor sevgi və səmimiyyətlə bu filmi ərsəyə gətirməsi üçün ona etimad göstərdiyinə görə şəxsən mədəniyyət naziri Anar Kərimova, həmçinin bu işdə ona dəstək olan nazirliyin müvafiq şöbələrinin, "Azərbaycanfilm" kinostudiyasının rəhbərlərinə minnətdarlığını bildirib: "Bu filmin mənim yaradıcı həyatımda özünəməxsus yeri var".



Fikrət Əmirovun oğlu, pianoçu, bəstəkar, Xalq artisti Cəmil Əmirov ekran işinin sevgi ilə ərsəyə gəldiyini və razı qaldıqlarını deyib. O, ailələri adından Mədəniyyət Nazirliyinə və filmin yaradıcı heyətinə minnətdarlığını bildirib.






Çıxışlardan sonra film nümayiş olunub.

Ekran işində bəstəkarın qızları Afət Xəlilova, Sevil Əmirova, oğlu Cəmil Əmirov, eləcə də sənətkarın digər qohumlarının xatirələrinə, Xalq artisti, bəstəkar, pianoçu Fərhad Bədəlbəyli, musiqişünas, Əməkdar incəsənət xadimi Lalə Hüseynova, mədəniyyət naziri Anar Kərimov, musiqişünas, Əməkdar incəsənət xadimi Zemfira Qafarova, Xalq artisti, pianoçu Yeganə Axundova, tarzən, Xalq artisti Vamiq Məmmədəliyev, bəstəkar, Əməkdar incəsənət xadimi Oqtay Rəcəbov və başqalarının fikirlərinə yer verilib.

Filmdə Fikrət Əmirovun Azərbaycanı ölməz musiqiləri ilə dünyaya tanıdan sənətkar kimi yaradıcılıq məziyyətlərindən, milli melodiyalarla klassik musiqinin vəhdətində simfonik muğam kimi möhtəşəm bir janrın yaradıcı olmasından söz açılır. Vurğulanır ki, musiqi tariximizdə Fikrət Əmirov qədər öz əsərlərinin adına Azərbaycan sözünü həkk edən ikinci böyük bəstəkar yoxdur. "Azərbaycan kapriççiosu", "Azərbaycan süitası", "Azərbaycan elləri" kimi əsərləri musiqi sənətimizin inciləridir.

Sənədli kino ilə bədiiliyin mükəmməl sintezi olan ekran əsəri tamaşaçıya tarzən, bəstəkar Məşədi Cəmil Əmirovun yığcam sənət tərcümeyi-halına, bu sənət mühitində doğulan Fikrətin musiqiyə ruhən, qəlbən bağlanmasına, fakt və xatirələr toplusunda iki istedadlı və sevgi dolu musiqiçi – ata və oğul ömrünə birgə nəzər salmaq imkanı verir.

Qeyd edək ki, filmin quruluşçu operatoru Orxan Abbasov, quruluşçu rəssamı Quram Navrozaşvili, səs rejissoru Sergey Netrunenko, məsləhətçisi Cəmil Əmirov, montajçısı Əsgər Rəhimov, prodüseri Nazim Hüseynovdur.

əvvəli səh. 1-də

# Mədəniyyət qardaşlıq münasibətlərində zəngin dəyərdir

## Azərbaycan-Türkiyə Birgə Mədəniyyət Komissiyasının ikinci iclası keçirilib

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan bildirib ki, son iki il Azərbaycan və Türkiyə arasında bütün sahələrdə, o cümlədən mədəniyyət sahəsində əməkdaşlığın inkişafında mühüm mərhələ olub. İki ölkənin iştirakı ilə kino, teatr, muzeyşünaslıq, kitab işi, qeyri-maddi mədəni irs də daxil olmaqla mədəniyyətin müxtəlif sahələri üzrə əhəmiyyətli addımlar atılıb, müxtəlif layihələr həyata keçirilib. Kinofestivallar, kitab sərgiləri, Azərbaycanda "Şuşa İli" çərçivəsində təşkil edilən tədbirlər, "Türk dünyasının mədəniyyət paytaxtı" Bursa şəhərində keçirilən silsilə tədbirlər yaddaqalan olub.

Türkiyəli nazir müavini deyib ki, 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunan Şuşa şəhərində Azərbaycan və Türkiyənin iştirakı ilə birgə böyük tədbirlər, layihələr həyata keçiriləcək. O, həmçinin Türkiyədə yeni tipli kitabxanaların yaradılmasından bəhs edərək bununla bağlı Azərbaycana təkliflər təqdim edə biləcəklərini bildirib. O cümlədən maddi və qeyri-maddi mədəni irs sahəsində Türkiyənin təcrübəsini bölüşməyə hazır olduqlarını diqqətə çatdırıb.

***

İclasda daha sonra iki ölkənin mədəniyyətlə bağlı müvafiq struktur bölmələrinin məsul şəxsləri çıxış ediblər.

### Tarixi-mədəni irs və kino sahələrində əməkdaşlıq

Azərbaycan Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəis müavini Ağacavid Ramazanov bildirib ki, tarix və mədəniyyət abidələrinin bərpası, qorunması və mühafizəsi istiqamətində Türkiyə ilə əməkdaşlığımız davam edir. TİKA-nın (Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi) dəstəyi ilə Böyük Mərdəkan qəsri və Tuba şah məscidinin bərpası ilə bağlı tədbirlər həyata keçirilir. Artıq bütün layihə sənədlərinin hazırlanması və razılaşdırılması istiqamətində işlər başa çatmaq üzrədir: "Qısa müddətə bərpa-konservasiya işlərinə başlanılması planlaşdırılır. Eyni zamanda arxeoloji abidələrdən əldə olunan nümunələrin daha dərin tədqiq olunması üçün Türkiyənin təcrübəsindən istifadə etməyi düşünürük. Artıq "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində arxeoloji qazıntı, tədqiqat və kəşfiyyat işlərinin nəticəsində aşkar olunan artefaktların tarixinin dəqiqləşdirilməsi ilə bağlı radiokarbon və izotop analizlərinin laboratoriya şəraitində tədqiq olunması üçün TİKA-ya müraciət edilib".



TİKA-nın Azərbaycan üzrə nümayəndəsi Fatih Yılmaz isə Qarabağda bərpa-quruculuq işlərində Türkiyənin əlindən gələn dəstəyi göstərməyə hazır olduğunu bildirib və bununla bağlı ölkə rəhbərliyinin də təlimatı olduğunu diqqətə çatdırıb.

Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənov söyləyib ki, Azərbaycan ilə Türkiyə arasında kino sahəsində də sıx əlaqələr mövcuddur və birgə filmlərin çəkilişi, təcrübə mübadiləsi, beynəlxalq əməkdaşlıq çərçivəsində işbirliyi həyata keçirilir: "31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində dahi Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığından bəhs edən "Sevgi hekayəsi" adlı tammetrajlı sənədli filmin təqdimatı olacaq. Bundan başqa, gələn il Türkiyənin "Bozdağ Film" şirkəti tərəfindən Mədəniyyət Nazirliyinin təşəbbüsü və dəstəyi ilə "Qarabağ – Vətən müharibəsi" adlı çoxseriyalı bədii televiziya filminin istehsalı nəzərdə tutulub".

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kino idarəsinin baş direktoru Erkin Yılmaz qarşılıqlı əməkdaşlıqdan, "Bozdağ Film" şirkətinin ortaq işlərindən danışıb.

### Muzey işi və kitab sənayesi

Azərbaycan Mədəniyyət Nazirliyinin Muzey, qalereya və sərgilər şöbəsinin müdiri Nərgiz Abdullayeva iki ölkə arasında muzey işi sahəsində əməkdaşlıqdan danışıb. Deyib ki, Azərbaycan torpaqlarının işğalı zamanı ölkədən qeyri-qanuni yolla çıxarılmış maddi mədəniyyət nümunələrinin "ICOM Red List"inə salınması üçün Türkiyə Mədəniyyət və Turizm Nazirliyi ilə birgə iş aparılması planlaşdırılır.

Türkiyə Mədəni İrs və Muzeylər İdarəsinin baş direktoru Gökhan Yazqı bununla bağlı qeyd edib ki, ölkədən qaçırılmış, oğurlanmış əsərlərin geri qaytarılması istiqamətində mühüm işlər görülür: "Son 4 ildə 4000-dən çox əsər geri qaytarılıb. Bu, hüquqi anlamda çox böyük uğurdur. Azərbaycanla bu istiqamətdə də iş görməyə, əməkdaşlıq etməyə hazırıq".

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli bildirib ki, kitab işi iki ölkə arasında ən prioritet məsələlərdən biridir: "5-9 oktyabr 2022-ci il tarixində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Ekspo Mərkəzində təşkil olunan VIII Bakı Beynəlxalq Kitab Sərgisində Türkiyə "fəxri qonaq ölkə" kimi iştirak edib.

Bu xüsusda Türkiyənin nazir müavini Ahmet Misbah Demircan da fikirlərini bölüşərək kitab işi ilə bağlı görülən işlərdən bəhs edib, Azərbaycanın və Türkiyənin Milli kitabxanalarında qarşılıqlı şəkildə iki ölkəyə aid guşənin yaradılmasını təklif edib.

### Yaradıcı sənayelər – əməkdaşlığın yeni sahəsi

Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Ramil Abbəkirov söyləyib ki, rəhbəri olduğu şöbə ilə Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin müvafiq şöbəsi arasında əməkdaşlıq əlaqələri qurulub: "Rəqəmsal inkişaf sahəsində Türkiyə ilə ortaq layihəyə imza atdıq. Bu ilin iyun ayında İstanbulda "Dünyadakı tək davamlı enerji insan yaradıcılığıdırmı?" mövzusunda keçirilən "İDSF-22" Beynəlxalq Rəqəmsal İncəsənət Festivalında Azərbaycanın ilk süni intellekti "Şuşa"nın kompozisiyası da nümayiş olunub. Kompozisiyada Vətənimizin tarixi mədəniyyət beşiyi olan Şuşanın qədim köklərə malik incəsənət nümunələri – xalçalar, milli musiqilərimizdən ibarət parçalar süni intellekt vasitəsilə canlandırılır. "Şuşa" adı verilən süni intellekt zalında Qarabağa xas xalça motivləri incələnərək insan əli dəymədən yenidən toxunaraq izləyicilərə təqdim olunub".

Türkiyə Araşdırma və Təhsil Ümumi Müdirliyi Xalq mədəniyyəti şöbəsinin müdiri Serkan Emir Erkmen yaradıcı sənayelər sahəsində iki ölkənin ortaq layihələrindən, UNESCO-nun komitələri çərçivəsində aparılan əməkdaşlıqdan bəhs edib.

Nazirliyin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdir müavini Sara Timurova Üzeyir Hacıbəylinin "Koroğlu" operasının 2023-cü ildə yenidən Türk dünyası sənətçiləri ilə birgə səhnələşdirilməsinin planlaşdırıldığını bildirib: "Şuşa 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" elan edildiyi üçün bu il çərçivəsində Türk dünyasından nümayəndələrin, sənətçilərin də iştirakı ilə operanın premyerasını keçirməyi düşünürük".



Elm, təhsil və gənclərlə iş sektorunun müdiri Lalə Kərimova Azərbaycandakı təhsil sistemi və nazirliyin tabeliyində olan musiqi və incəsənət məktəbləri haqqında məlumat verib.

İncəsənət və qeyri-maddi mədəni irs şöbəsi Teatr sektorunun müdiri Könül Cəfərova Azərbaycan və Türkiyə teatrları arasında birbaşa əlaqələrin inkişaf etdirilməsi istiqamətində müəyyən işlərin görüldüyünü deyib: "Gələn il Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 ili tamam olur. Biz bu yubileyi qardaş Türkiyə ilə birgə qeyd etmək, həmçinin bu sahədə kadrların yetişdirilməsi sahəsində (səs rejissoru, işıq rəssamı və s.) Türkiyənin təcrübəsindən yararlanmaq istəyirik".

Nazirliyin Beynəlxalq əməkdaşlıq şöbəsi Beynəlxalq təşkilatlarla əməkdaşlıq sektorunun müdiri Araz Bağırlı qeyd edib ki, son iki ildə Türkiyə ilə beynəlxalq təşkilatlar, xüsusilə UNESCO, TÜRKSOY çərçivəsində əməkdaşlıq daha da dərinləşib. Bu yaxınlarda Türkiyə ilə birgə "Pəhləvanlıq, ənənəvi zorxana oyunları və idman növləri", "Baramaçılıq və toxuculuq üçün ənənəvi ipək istehsalı", "Molla Nəsrəddin lətifələrinin şifahi ənənəsi" və "Çay mədəniyyəti: kimliyin, qonaqpərvərliyin və sosial əlaqələrin rəmzi" nominasiyaları üzrə müsbət qərar qəbul edilib və bu 4 element UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı"na daxil edilib".

İclasda həmçinin Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağcı, Türkiyə Kitabxanalar və Nəşrlər İdarəsinin baş direktor müavini Ahmet Aldemir və digər qonaqlar çıxış ediblər. Qeyd olunub ki, bu gün aparılan müzakirələr iki ölkə arasında mədəni əlaqələrin böyük gələcəyindən xəbər verir.

***

Çıxışlardan sonra Vaqif Əliyev və Ahmet Misbah Demircan Azərbaycan-Türkiyə Birgə Mədəniyyət Komissiyasının ikinci iclasının protokolunu imzalayıblar.

Protokolda iki ölkə arasında mədəni əlaqələrin gücləndirilməsi və əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər öz əksini tapıb. Mədəni irs, kino, muzeyşünaslıq, kitabxanaçılıq, yaradıcı sənayelər, ifaçılıq sənətləri, beynəlxalq və regional təşkilatlarla əlaqələr çərçivəsində mədəni əməkdaşlıq imkanlarının genişləndirilməsi üzrə görüləcək birgə işlərlə bağlı maddələr yer alıb.

Nazirin birinci müavini Vaqif Əliyev Azərbaycanla Türkiyə arasındakı mədəni münasibətlərin çoxşaxəliliyini və əhatə dairəsini nəzərə alaraq, yeni protokoldakı maddələri özündə ehtiva edən konkret təkliflərdən ibarət yeni Fəaliyyət Planı üzərində işlərin aparılmasını təklif edib.

Sonda qarşılıqlı xatirə hədiyyələri təqdim edilib.

**N.Məmmədli**

# Bakıda "Türk filmləri həftəsi"




Xəbər verdiyimiz kimi, 17-21 dekabr tarixlərində Bakıda "Türk filmləri həftəsi" keçirilir. Layihə Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Mədəniyyət Nazirliyi, Bakı Yunus Əmrə İnstitutu və Yerli Düşüncə Dərnəyinin birgə təşkilatçılığı ilə gerçəkləşir.

"Türk filmləri həftəsi"nin dekabrın 17-də Nizami Kino Mərkəzində keçirilən açılış mərasimində Azərbaycan mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, Türkiyə mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan, Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağcı, mədəniyyət, incəsənət xadimləri, digər qonaqlar iştirak ediblər.

Açılış nitqi söyləyən Vaqif Əliyev qeyd edib ki, Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövründə daim bir-birinə dəstək olublar. Bu dəstək müasir dövrümüzdə də davam edir: "Azərbaycan müstəqillik əldə etdikdən sonra Türkiyə ilə ölkəmiz arasında bütün sahələrdə olduğu kimi, mədəni münasibətlərdə də böyük inkişaf baş verib. Kino sahəsində də Azərbaycanla Türkiyə arasında əməkdaşlıq uğurla davam və inkişaf etdirilir. Buna misal olaraq hər iki ölkədə keçirilən kino günlərini, film təqdimatlarını, tanınmış kino xadimləri ilə görüşləri və s. göstərmək olar. İki qardaş ölkə arasında kino sahəsindəki əməkdaşlığın davamı olaraq Bakıda növbəti "Türk filmləri həftəsi"nin açılışı keçirilir. İnanıram ki, film həftəsi çərçivəsində nümayiş olunacaq ekran əsərləri Azərbaycan tamaşaçıları tərəfindən, həmişə olduğu kimi, yenə də böyük maraq və sevgi ilə qarşılanacaq".

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan çıxışına Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" sözləri ilə başlayıb. Bildirib ki, Azərbaycan və Türkiyə qardaş ölkələr olaraq bir-birinin sevincini, kədərini paylaşan, ürəyi bir döyünən eyni millətdir: "Qarabağda 30 il əvvəl baş verən hadisələr Azərbaycanda olduğu kimi, Türkiyədə də böyük kədərlə qarşılanırdı. 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə isə bizlərə böyük sevinc hissi bəxş etdi".

Ahmet Misbah Demircan çıxışının sonunda layihənin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağcı, Yerli Düşüncə Dərnəyinin sədri, türkiyəli deputat Metin Gündoğdu və Bakı Yunus Əmrə İnstitutunun rəhbəri Selçuk Karakılıç çıxış edərək layihə haqqında məlumat veriblər.

Vurğulanıb ki, kino həftəsinin proqramında "Sədaqət Həsən", "Yeddinci kameradakı möcüzə", "Yaxşı ki varsan, Ərən", "Sədaqət – müqəddəs döyüş", "Eşqin ömrü", "Ankara yayı – vida məktubu" bədii və "Rafadan tayfa – Göbəklitəpə" cizgi filmləri yer alıb. Seanslara giriş pulsuzdur.

Daha sonra türkiyəli kinematoqrafçılar və film həftəsinə dəstək olan qurumların nümayəndələrinə plaketlər təqdim olunub.

Sonda rejissor Semih Kaplanoğlunun "Sədaqət Həsən" filmi nümayiş etdirilib.

Qeyd edək ki, kino həftəsi çərçivəsində film nümayişləri ilə yanaşı, rejissor Semih Kaplanoğlunun yerli kinematoqrafçılarla ustad dərsi formatında görüşü də olub. Bundan əlavə, türkiyəli rejissorlar Tunç Davut, Murat Şeker, Mustafa Kara, prodüserlər Hacı Mehmet Altınal, Qalip Güner, aktyorlar İpek Tuzcuoğlu, Umut Karadağ və Fatih Osmanlı Bakıda müvafiq sahə üzrə tələbələrlə, kino işçiləri ilə görüşüb, birgə layihələrlə bağlı müzakirələr aparılıb.

Qeyd edək ki, layihə türk filmlərini ölkəmizdə nümayiş etdirməklə bərabər, Türkiyə və Azərbaycanın kino sektorunun nümayəndələrini bir araya gətirmək, müştərək ekran əsərləri yaratmaq və təcrübə mübadiləsi aparmaq məqsədi daşıyır.

**Nurəddin**

# "Yəsəvidən başlayan kamillik yolu"

Dekabrın 19-da Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyi və Milli Məclisin Mədəniyyət komitəsinin dəstəyi ilə "Yəsəvidən başlayan kamillik yolu" adlı ədəbi-bədii gecə keçirildi.

Tədbirdə Türk dünyasının mütəfəkkir alimi, şair və din xadimi Əhməd Yəsəvinin (1093-1166) Azərbaycan dilinə təkrar tərcümə edilmiş "Divani-hikmət" kitabı da təqdim olundu.

Tədbiri şair Əkbər Qoşalı açaraq Türk dünyasının böyük mütəfəkkiri Əhməd Yəsəvinin yaradıcılığı haqqında məlumat verdi, onun məşhur "Divani-hikmət" əsərinin dilimizə tərcümə edilməsinin əhəmiyyətindən danışdı. Qeyd olundu ki, Əhməd Yəsəvinin yaradıcılığı Orta Asiya xalqlarının ədəbiyyat və dillərinin inkişafına, bütövlükdə dünya mədəniyyətinin inkişafına öz təsirini göstərib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Əhməd Yəsəvinin ömür yolu və dini görüşləri barədə söz açdı. Qeyd etdi ki, alimin İslam haqqında düşüncəsində məzhəb ayrı-seçkiliyi yoxdur.

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli bu məşhur əsərin Azərbaycan dilində




yeni nəşrini əlamətdar hadisə adlandırdı: "Divani-hikmət"in nəşri ilə bağlı nazirliyə müraciət olundu və biz bunu məmnuniyyətlə qarşıladıq. Çünki Əhməd Yəsəvinin hikmət xəzinəsi daha mükəmməl şəkildə Azərbaycan oxucusuna çatdırılmalı idi".

Çıxışlardan sonra musiqi nömrəsi təqdim edildi. Əməkdar artist Nuriyyə Hüseynova, aşıq, vokalçı İlham Əsgəroğlunun ifasında Əhməd Yəsəvinin sözlərinə bəstələnmiş əsərlər səsləndirildi. Qiraətçi Həlimət Məmmədova şairin şeirlərini söylədi.

**Savalan Fərəcov**

# "Ustad dərsləri" layihəsinin növbəti mərhələsi

## Kamança, nağara, violin, vokal, fortepiano ifaçılığı üzrə

Görkəmli bəstəkarlar Fikrət Əmirov və Rauf Hacıyevin 100 illik yubileyləri münasibətilə Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi tərəfindən reallaşdırılan "Ustad dərsləri" layihəsinin növbəti həftəsi 12-16 dekabr tarixlərində keçirilib. Layihə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin, Sumqayıt və Kürdəmir regional mədəniyyət idarələrinin tabeliyində fəaliyyət göstərən bədii təhsil müəssisələri və mərkəzlərin kamança, nağara, violin, akademik və estrada vokal, fortepiano müəllimlərini əhatə edib.




Ustad dərslərini kamança ixtisası üzrə Azərbaycan Milli Konservatoriyasının müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi Arif Əsədullayev, nağara ixtisası üzrə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin baş müəllimi Təhmasib Məmmədov, violin ixtisası üzrə Niyazi adına 22 nömrəli Musiqi məktəbinin direktoru Əməkdar müəllim İlhamə Ağayeva, akademik və estrada vokal ixtisası üzrə Bakı Musiqi Akademiyasının baş müəllimi, M.Maqomayev adına 26 nömrəli Musiqi məktəbinin müəllimi Dmitri Babayev, fortepiano ixtisası üzrə G.Şaroyev adına 35 nömrəli Musiqi məktəbinin pedaqoqu Əməkdar müəllim Kamilla Əmirova aparıb.

Kamança ixtisası üzrə dərslərə 24, nağara ixtisası üzrə 24, violin ixtisası üzrə 25, akademik və estrada vokal ixtisası üzrə 15 nəfər, fortepiano ixtisası üzrə isə 108 müəllim qatılıb. Bundan başqa, dərslərdə aparıcı bədii təhsil müəssisələrinin istedadlı şagirdləri də çıxış ediblər.

№94 (1967)
21 dekabr 2022
www.medeniyyet.az

# Mədəniyyət naziri Sumqayıtda vətəndaşlarla görüşüb, müəssisələrin fəaliyyəti ilə tanış olub

Yerlərdə sakinlərin müraciət və problemlərinin dinlənilməsi, onların həlli ilə əlaqədar müvafiq addımların atılması dövlətimizin diqqət mərkəzindədir. Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən bu məqsədlə hər ay bölgələrdə vətəndaşların qəbulu keçirilir.

Dekabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov ayın 16-da Sumqayıt Şəhər Heydər Əliyev Mərkəzində vətəndaşların qəbulunu keçirib.

Mədəniyyət nazirinin budəfəki qəbulu Sumqayıt, Abşeron, Xızı, Qubadlı, Zəngilan, Şuşa şəhər və rayonlarını əhatə edib. Eyni zamanda qəbulda digər şəhər və rayonlardan gəlmiş vətəndaşların da müraciətləri dinlənilib.

Qəbuldan öncə mədəniyyət naziri Anar Kərimov və Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Nazir və şəhərin icra başçısı Sumqayıt Şəhidlər xiyabanını ziyarət edib, Vətən uğrunda canından keçən qəhrəman oğulların xatirəsinə ehtiramını bildiriblər.

Sonra Sumqayıt Şəhər Heydər Əliyev Mərkəzinə gələn Anar Kərimov mərkəzin fəaliyyəti ilə tanış olub. Məlumat verilib ki, 2013-cü ildən fəaliyyət göstərən mərkəzin 2016-cı ildə dövlət başçısının iştirakı ilə yeni binasının açılışı keçirilib. Mərkəzdə xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin ömür yolu və dövlətçilik fəaliyyəti təbliğ olunur. Burada, həmçinin müxtəlif dərnəklər fəaliyyət göstərir, tədbirlər təşkil edilir.

Daha sonra Heydər Əliyev Mərkəzində nazirliyin məsul əməkdaşlarının da iştirakı ilə vətəndaşların qəbulu keçirilib. Sakinlərin müraciətləri, əsasən işlə təmin olunma, iş yerinin dəyişdirilməsi, sərgi və kitab təqdimatının keçirilməsinə dəstək göstərilməsi, fəxri adın verilməsi, əmək müqaviləsinin uzadılması, mədəniyyət müəssisələrinin təmiri, fəaliyyəti və digər məsələləri əhatə edib.

Anar Kərimov vətəndaşların müraciət və təkliflərini dinləyib, ərizə və şikayətlərinə baxıb. Qaldırılan məsələlərin operativ, hərtərəfli araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

***

Qəbuldan sonra nazir Anar Kərimov Sumqayıtda bir sıra mədəniyyət ocaqlarına baş çəkib, müəssisələrin ümumi fəaliyyəti, cari vəziyyəti və maddi-texniki imkanları haqqında məlumat alıb.





Səfər çərçivəsində Anar Kərimov 2019-cu ildə istifadəyə verilən Sumqayıt Muğam Mərkəzində və 2017-ci ildə yaradılan Bayraq Muzeyində olub.

Sonra nazir 1986-cı ildən fəaliyyət göstərən Sumqayıt şəhər "Kimyaçı" Mədəniyyət Sarayına baxış keçirib. Qeyd edilib ki, 2011-ci ildə Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfəri zamanı Mədəniyyət Sarayının mövcud vəziyyəti ilə tanış olub, bu mədəniyyət ocağının əsaslı şəkildə yenidən qurulması ilə bağlı tapşırıqlar verib. 2013-cü ilin oktyabr ayında burada əsaslı təmir işlərinə başlanılıb və 2017-ci ilin sentyabr ayında tam başa çatdırılıb.

Sarayda Sumqayıtın musiqi məktəblərinin müəllimlərindən ibarət xalq çalğı alətləri orkestri, "Humay" xor kollektivi, "Buta" qızlar ansamblı və "Qafqaz" milli rəqs qrupunun ifaları təqdim olunub.

Sumqayıt şəhər Əli Kərim adına Poeziya evinə gələn nazirə məlumat verilib ki, müəssisə 1990-cı ildə fəaliyyətə başlayıb. Poeziya evi 2013-cü ildə daha yaxşı şəraiti olan binaya köçürülüb. Nazir burada yeni yaradılmış xalq çalğı alətləri orkestrinin üzvləri ilə görüşüb, kollektivin ifasında xalq və bəstəkar mahnılarını dinləyib.

Anar Kərimov Sumqayıt şəhər Səid Rüstəmov adına 3 nömrəli Uşaq İncəsənət Məktəbinin fəaliyyəti ilə də tanış olub. Məlumat verilib ki, musiqi məktəbi 1976-cı ildə fəaliyyətə başlayıb, 2016-cı ildə təhsil ocağı üçün yeni bina istifadəyə verilib. Məktəbdə fortepiano, violin, klarnet, balaban, saz, tar, kamança, qarmon, nağara, xanəndəlik, vokal, rəssamlıq, xoreoqrafiya, xor dirijorluğu, nəzəriyyə ixtisasları tədris olunur, 902 şagird təhsil alır, 189 müəllim çalışır. Məktəbdə musiqi təhsili ocaqlarının şagirdlərdən ibarət orkestrinin ifası təqdim olunub.

Cəfər Cabbarlı adına Mədəniyyət Mərkəzinə gələn nazirə 1951-ci ildə yaradılan müəssisənin fəaliyyəti barədə məlumat verilib.

Səfər çərçivəsində Sumqayıt Dövlət Dram Teatrına da baxış keçirilib. Bildirilib ki, teatr 1968-ci ildə fəaliyyətə başlayıb. Prezident İlham Əliyevin Sərəncamı ilə 2018-ci ildə teatrın 50 illik yubileyi dövlət səviyyəsində qeyd olunub.

Anar Kərimov mədəniyyət müəssisələrində fəaliyyətin daha da canlandırılması, işin müasir tələblərə uyğun qurulması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

## Gəncədə "Rauf Hacıyev – 100" festivalı çərçivəsində konsert



Mədəniyyət Nazirliyi tərəfindən keçirilən "Rauf Hacıyev – 100" Musiqi Festivalı çərçivəsində Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında konsert proqramı təqdim olunub.

Mədəniyyət Nazirliyinin dəstəyi, Gəncə Dövlət Filarmoniyası, Gəncə Regional Mədəniyyət İdarəsi və şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə reallaşan konsertdə bəstəkarın estrada mahnıları səslənib.

Konsertdən əvvəl Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov çıxış edərək sənətkarın həyat və yaradıcılığından danışıb.

Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin əməkdaşı, musiqişünas Turan Məmmədəliyeva Rauf Hacıyevin musiqi mədəniyyətimizin inkişafındakı xidmətlərindən bəhs edib.

Musiqi axşamının proqramı Xalq artisti Rafael Bayramovun idarə etdiyi kamera orkestri və Şəhriyar Tağıyevin rəhbərlik etdiyi "Xəmsə" estrada ansamblı tərəfindən hazırlanıb. Xalq artisti Sevinc İbrahimova, Əməkdar artist Kəmalə Tağızadə, ansamblın solistləri Əli Məmmədov, Rüstəm Cəfərov, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, müğənnilər Leyla Məmmədova, Elmir Pişnamazzadə, Vasif Bayramov Rauf Hacıyevin məşhur mahnı və instrumental kompozisiyalarını ifa ediblər. Bəstəkarın "Qızlar rəqsi" adlı əsəri də ilk dəfə ifa olunub.

## Fikrət Əmirovun 100 illiyi Şəkidə də qeyd edilib



Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi Şəkidəki Heydər Əliyev Mərkəzində şəhər İncəsənət məktəbi ilə birgə Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş "Azərbaycan ətirli bəstəkar" adlı tədbir keçirib.

Mərkəzi İncəsənət Məktəbinin müəllimi musiqişünas Nərgiz Kərimova dahi bəstəkarın musiqi dünyasından söhbət açıb.

Mərkəzi İncəsənət Məktəbinin müəllimləri, həmçinin "Zirvə" folklor instrumental ansamblı (bədii rəhbər Şəki şəhər İncəsənət məktəbinin direktoru Eldar Rəcəbov) və şəhər İncəsənət məktəbinin orkestrinin bir-birindən gözəl ifaları dinləyicilərə musiqi bayramı yaşadıb.

Sonda Şəki RMİ-nin rəisi Azər Yusubov çıxış edərək Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin direktoru Əməkdar artist Əziz Qarayusifliyə və Şəki şəhər İncəsənət məktəbinin direktoru Eldar Rəcəbova, konsertin bütün iştirakçılarına minnətdarlığını bildirib.

## Uşaqlar "Cırtdanın nağılı"nı izləyiblər

Kürdəmir RMİ Kürdəmir Rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "Cırtdanın nağılı" kukla tamaşası rayonun Atakişili kənd tam orta məktəbində səhnəyə qoyulub.

Tamaşanı rayonun şəhid, qazi, müharibə iştirakçıları və aztəminatlı ailələrinin uşaqları izləyiblər. Nümayişin məqsədi həssas qruplara daxil olan ailələrdə uşaqların asudə vaxtının səmərəli təşkili və şifahi xalq ədəbiyyatı nümunələrinə maraq formalaşdırmaqdır.

Kukla tamaşası uşaqlar tərəfindən böyük maraqla qarşılanıb.

# "Şuşa – könlümüzün şəhəri"



Ağdaş Regional Mədəniyyət İdarəsi (RMİ) Zərdab rayon MKS-nin təşkilatçılığı ilə "Allahın gözəl əsəri, könlümüzün şəhəri" adlı ədəbi-bədii gecə keçirilib. Tədbirdə səslənən musiqi nömrələri, məktəblilərin Şuşa, Ali Baş Komandan və vətənpərvərlik haqqında söylədikləri şeirlər, təqdim etdikləri səhnəciklər iştirakçılar tərəfindən alqışlarla qarşılanıb.

***

Xaçmaz RMİ-nin təşəbbüsü ilə "Şuşa İli"nə həsr olunan intellektual yarış keçirilib. RMİ-nin rəisi Vüsal Hüseynov bildirib ki, yarışmanın məqsədi mədəni xidmətlər şəbəkəsinin və mədəni-kütləvi tədbirlərin genişləndirilməsindən ibarətdir. Regional idarə üzrə beş rayonu (Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən) təmsil edən mədəniyyət işçilərindən ibarət komandalar arasında yarış 3 mərhələdən ibarət olub. Qubanı təmsil edən komanda birinci yerə layiq görülüb və regional idarə tərəfindən fəxri fərman, kubok və komanda üzvlərinə təşəkkürnamələr təqdim olunub.

***

Şəki RMİ Balakən Rayon Mərkəzi Kitabxanasında "Tarixi Qələbəmizin zirvəsi" adlı tədbir keçirilib. Kitabxananın fəal oxucusu, həvəskar yazar Kübra Əliqızı Qarabağa, Şuşaya həsr etdiyi şeirlərini səsləndirib.

***



Biləsuvar RMİ Salyan rayon MKS-də "Əziz Şuşa, sən azadsan!" adlı ədəbi-bədii gecə keçirilib. Salyan Rayon Mədəniyyət Mərkəzi və Salyan Dövlət Kukla Teatrının əməkdaşları tərəfindən kompozisiyalar nümayiş etdirilib, solistlərin ifasında vətənpərvərlik mahnıları səsləndirilib.

***

Gəncə RMİ Goranboy rayon Uşaq kitabxanası tərəfindən "Şuşa haqqında nə bilirik?" adlı tədbir təşkil edilib. Çıxış edənlər şəhərin tarixi, mədəniyyət abidələri haqqında məlumat veriblər.

***

Masallı RMİ Masallı rayon Tüklə kənd Sənətkarlıq evində "Şuşa, sən azadsan!" mövzusunda tədbir keçirilib. Ə.İbadov adına kənd tam orta məktəbi şagirdlərinin ifasında Şuşaya həsr olunmuş şeirlər qiraət edilib.

***

Kürdəmir RMİ Beyləqan Rayon Tarix-Diyarşünaslıq Muzeyində Aygün Bayramlının "Yeni bir səhər" kitabının təqdimatı keçirilib. "Şuşa İli"nə həsr olunmuş kitab regional idarənin dəstəyi ilə işıq üzü görüb. İdarənin rəisi, kitabın ön sözünün müəllifi Faiq Xudanlı çıxış edərək nəşr haqqında danışıb.




Xocavənd rayon Mədəniyyət evində "Mədəniyyətimizin beşiyi – Şuşa" adlı tədbir keçirilib. Mədəniyyət evi və Uşaq musiqi məktəbinin hazırladığı konsert proqramı, Salakətin kənd tam orta məktəbi şagirdlərinin təqdim etdiyi ədəbi-bədii kompozisiya iştirakçılar tərəfindən maraqla qarşılanıb.

**Hazırladı: N.Məmmədli**

## "Daşkənddən Qarabağa könül körpüsü"

Sumqayıt Muğam Mərkəzində "Şuşa İli"nə həsr olunan "Daşkənddən Qarabağa könül körpüsü" adlı ədəbi-bədii gecə keçirilib.



Tədbir Milli Məclisin Mədəniyyət komitəsi, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM), Sumqayıt Şəhər İcra Hakimiyyəti və Sumqayıt RMİ-nin birgə təşkilatçılığı ilə gerçəkləşib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, millət vəkili Müşfiq Məmmədli, Sumqayıt şəhər icra başçısının birinci müavini Teymur Səmədov, Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev, eləcə də Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin rektoru Abdulqappar Kirqizboyev, Özbəkistanın ölkəmizdəki səfirliyinin nümayəndələri, digər qonaqlar tədbirdə iştirak ediblər.

Çıxışlarda iki qardaş ölkə arasında tarixi bağlılıqdan, Ulu öndər Heydər Əliyevin özbək xalqına hər zaman böyük sevgi ilə yanaşmasından, son dövrlərdə Azərbaycan və Özbəkistan arasında əlaqələrin sürətli inkişafından, bu xüsusda dövlət başçılarının mühüm rolundan bəhs edilib. Sonra "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin fəxri fərmanı iştirakçılara təqdim olunub.

Tədbir Azərbaycanın və Özbəkistanın Xalq artisti Gülyanaq Məmmədova və tarzən, Əməkdar artist Sahib Paşazadənin ifaları ilə davam etdirilib.

## İstiqlal nəğməkarı

Sabirabad RMİ Sabirabad Rayon Mədəniyyət Mərkəzində "İstiqlal nəğməkarı Əhməd Cavad" adlı tədbir keçirilib. Tədbir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, maarifçi və ictimai xadim Əhməd Cavadın (1892-1937) 130 illik yubileyinə həsr olunub.



Sabirabad RMİ-nin rəis müavini Telman Əzimov çıxış edərək Əhməd Cavadın Azərbaycan ədəbi-bədii fikir tarixində istiqlal şairi kimi özünəməxsus dəst-xətti ilə seçildiyini bildirib.

Sabirabad rayon MKS-nin Xidmət şöbəsinin müdiri Zərifə Kərimova şairin həyat və yaradıcılığı haqqında məruzə ilə çıxış edib.

Tədbirin bədii hissəsində Sabirabad şəhər Ü.Hacıbəyli adına Uşaq musiqi məktəbi müəllim və şagirdlərinin ifasında musiqilər səsləndirilib, kompozisiyalar nümayiş olunub. Məktəblilər şairin müxtəlif şeirlərini qiraət ediblər.

# Türkiyəli arxeoloqlar Qəbələ qoruğunda

AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun təşkilatçılığı ilə Bakıda Türkiyənin Şanlıurfa şəhəri yaxınlığındakı Göbəklitəpə arxeoloji abidəsinə həsr olunan "Daş təpələr: Sivilizasiyanın erkən coğrafiyası" mövzusunda elmi seminar keçirilib. Seminarda iştirak edən İstanbul Universitetinin professoru Necmi Karul və dosent Eylem Özdoğan Qəbələ Dövlət Tarix-Bədii Qoruğu və Qəbələ Arxeoloji Mərkəzi ilə tanış olublar.




Qoruğun direktoru Zahir Kərimov bildirib ki, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktoru professor Abbas Seyidov, tarix elmləri üzrə fəlsəfə doktoru Ceyhun Eminli, SEBA (Seul-Baku) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının sədr müavini İrina Zeynalova və şöbə müdiri İradə Nəcəfova türkiyəli qonaqlara tarixi məkan haqqında ətraflı məlumat veriblər. "Qafqaz Albaniyasının paytaxtı – Qəbələ" filmi də maraqla qarşılanıb.

Sonra qonaqlar Qəbələ Arxeoloji Mərkəzində sərgilənən arxeoloji materiallarla tanış olublar. Onlara mərkəzin yaradılması və bu sahədə SEBA-nın gördüyü işlər barədə məlumat verilib. Onlar qoruğun tarixi məkanlarından olan Səlbir və Qala ərazilərində aparılmış arxeoloji qazıntı sahələri ilə də tanış olublar.

Qonaqlara SEBA-nın nəşr etdiyi Qəbələnin tarixi, etnoqrafiyası və folkloruna aid kitablar təqdim edilib.



# Mədəniyyət Nazirliyi ilə DİM arasında anlaşma memorandumu imzalanıb

Mədəniyyət Nazirliyi sistemində həyata keçirilən islahatların əsas istiqamətlərindən birini tabelikdə olan uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu, eləcə də direktor və direktor müavini təyinatının müsabiqə vasitəsilə həyata keçirilməsidir. Məqsəd qeyd olunan sahələrdə şəffaflığın təmin edilməsi, kadrların müvafiq istiqamətlər üzrə bilik və bacarıqlarının obyektiv qiymətləndirilməsindən ibarətdir.

Məlum olduğu kimi, uşaq incəsənət və musiqi məktəblərində tədrisin necə qurulması mədəniyyətimizin inkişafının təməlində dayanan əsas məsələlərdən biridir. Yəni bu sahədə keyfiyyətli təhsil başlıca meyardır. Mədəniyyət Nazirliyi musiqimizin, mədəniyyətimizin gələcək nəsillərə çatdırılmasının ən mütərəqqi üsul və vasitələrinin tətbiqi işinə böyük önəm verir. İslahatlara məhz bu mərhələdən – uşaq musiqi və incəsənət məktəblərindən – başlanılması da bununla əlaqədardır. Çünki məktəblərdə təhsil alan uşaqlar və pedaqoji heyət üçün tam şəffaf mühitin yaradılması, bu prosesə ciddi nəzarət olunması tədrisin keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, bütövlükdə bu sahənin mənəvi-psixoloji baxımdan da saflaşmasına vəsilə olacaq. Təlim-tədris sisteminin təkmilləşdirilməsi üçün peşəkar kadrların prosesə cəlb edilməsi də əsas şərtdir.

Bu islahatların reallaşdırılmasında Dövlət İmtahan Mərkəzi (DİM) ilə uğurlu əməkdaşlığa başlanılıb. Bu ilin avqust ayında nazirliyin DİM-lə birgə keçirdiyi müəllimlərin işə qəbul imtahanı da bunun əyani sübutudur.

İki qurum arasından əməkdaşlığın daha da möhkəmləndirilməsi məqsədilə bu günlərdə real addımlar atılıb. Dekabrın 13-də Mədəniyyət Nazirliyi ilə DİM arasında əməkdaşlığa dair memorandum imzalanıb.

Bu münasibətlə DİM-də keçirilən görüşdə mədəniyyət naziri Anar Kərimov, DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, DİM Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov, eləcə də nazirliyin və mərkəzin müvafiq struktur bölmələrinin rəhbərləri iştirak ediblər.

Əvvəlcə nazirliyin nümayəndələri DİM-də yaradılmış və ölkəmizin milli qiymətləndirmə sisteminin tarixini əks etdirən muzey və qəbul imtahanları ilə bağlı ölkə üzrə statistik məlumatları əks etdirən Azərbaycanın elektron xəritəsi ilə tanış olublar.

Görüşdə Mədəniyyət Nazirliyi ilə DİM arasında dərinləşən əməkdaşlığın nazirlik tərəfindən reallaşdırılan islahatlara mühüm töhfə verəcəyi bildirilib. Bu baxımdan imzalanacaq memorandumun vacib əhəmiyyət kəsb etdiyi vurğulanıb. Söhbət zamanı, həmçinin təkcə musiqi məktəblərinin yox, gələcəkdə Mədəniyyət Nazirliyinin strukturuna daxil olan digər müəssisələrdə də işə qəbul prosesinin DİM ilə birgə həyata keçirilməsi məsələsi müzakirə edilib.

Daha sonra nazir Anar Kərimov və DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə iki qurum arasında əməkdaşlığa dair anlaşma memorandumunu imzalayıblar.

Memorandumun məqsədi uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin və direktorların işə qəbulu üzrə test imtahanlarının şəffaflığını təmin etmək, sahə üzrə uğurlu beynəlxalq təcrübəni ölkə kontekstinə uyğun olaraq tətbiq etmək, peşəkar kadr bazasının formalaşmasına və sahə üzrə səriştəli şəxslərin pedaqoji fəaliyyətə cəlb olunmasına töhfə verməkdən ibarətdir.

Sənəddə hər iki qurum tərəfindən birlikdə imtahanın keçirilməsi qaydaları və müsabiqə şərtləri barədə müzakirələrin aparılması, müvafiq təkliflərin hazırlanması, habelə DİM tərəfindən imtahan prosesinə cəlb olunan ekspertlərə təlimlərin keçilməsi öz əksini tapıb.

Memorandumda, həmçinin rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə ilə bağlı qüvvədə olan qanunvericiliyə əməl edilməsi ayrıca bənddə göstərilib. Bu sənədin icrası ilə əlaqədar hər hansı maddi və sair nemətlərin, imtiyaz və ya güzəştlərin qanunsuz təklif və ya vəd olunması, yaxud verilməsi barədə informasiya ortaya çıxdıqda tərəflərdən birinin digərini dərhal məlumatlandırması da memorandumda təsbit olunub.

Sənədin imzalanma mərasimindən sonra nazir Anar Kərimov Azərbaycan tarixinə və mədəniyyət paytaxtımız Şuşaya həsr olunan kitabları DİM-in kitabxanasına hədiyyə edib.

# Azad edilmiş ərazilərdə mədəni irslə bağlı vəziyyət ICCROM və UNESCO-da diqqətə çatdırılıb

*əvvəli səh. 1-də*

Vebber Ndoro öz növbəsində ölkəmizə səfəri zamanı işğaldan azad olunmuş ərazilərə getdiyini və oradakı dağıntıları təəssüflə seyr etdiyini deyib. O, birgə təlimlərlə bağlı Azərbaycan tərəfinin təklifini müsbət qarşılayıb. Baş direktor ümidvar olduğunu bildirib ki, mərkəz Azərbaycan olmaqla, türkdilli dövlətlərin iştirakı ilə müvafiq proqramın həyata keçirilməsi uğurlu nəticələr verə bilər.

***

Dekabrın 15-16-da UNESCO-da Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə Komitənin 17-ci sessiyası keçirilib. Sessiyada ölkəmiz Azərbaycanın UNESCO yanında Daimi Nümayəndəliyi və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəhbərliyi səviyyəsində təmsil olunub.



Dövlət Xidmətindən verilən xəbərə görə, sessiyanın gündəliyində "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin mühafizəsi haqqında" 1954-cü il Haaqa Konvensiyasının İkinci Protokolunun implementasiyasının monitorinq və nəzarət mexanizmlərinə düzəlişlərin qəbul edilməsi, Ukraynadakı mədəni sərvətlərin qorunması və digər məsələlər yer alıb.

Müzakirələr zamanı çıxış edən Azad Cəfərli Azərbaycanın işğaldan azad olunmuş ərazilərində ermənilər tərəfindən otuz ilə yaxın müddətdə dağıdılmış tarix-mədəniyyət abidələrinin ilkin inventarlaşdırılması və mühafizəsi məqsədilə monitorinqlərin aparıldığını və bərpası üzrə tədbirlərin görüldüyünü diqqətə çatdırıb. Vurğulanıb ki, monitorinq prosesində əsas maneə işğal dövründə bu ərazilərin Ermənistan tərəfindən minalanmasıdır.

Dövlət Xidmətinin rəsmisi postmünaqişə dövründə tarixi və mədəniyyət abidələrinin qorunması ilə bağlı Azərbaycan tərəfinin gördüyü tədbirləri və təcrübəni digər dövlətlərlə də paylaşmağa hazır olduğunu bildirib.

Diqqətə çatdırıb ki, Azərbaycan Respublikası Hökuməti silahlı münaqişələr zamanı mədəni sərvətlərin qorunması mövzusuna xüsusi həssaslıqla yanaşır. Bu məqsədlə Komitənin monitorinq və nəzarət mexanizmlərinin yenilənməsi istiqamətində ölkəmizin aktiv iştirakı, eləcə də cari il 6-9 dekabr tarixlərində Bakıda mədəni sərvətlərin qorunması sahəsində UNESCO konvensiyalarının icrasının vacibliyi mövzusunda beynəlxalq konfransın təşkil edilməsi Azərbaycanın bu mövzuya verdiyi önəmin təzahürüdür.

Sessiyanın sonunda gündəliyin bəndləri üzrə qərarlar qəbul edilib, gələn il ərzində keçiriləcək növbəti sessiya və məsləhətləşmələr barədə məlumat verilib.

# Nazirliyin əməkdaşları üçün treninq

Moskva Ritorika və Natiqlik Bacarığı Universitetinin aparıcı təlimçisi, Beynəlxalq Trenerlər Assosiasiyasının üzvü Nəcəf Allahverdiyev tərəfindən Mədəniyyət Nazirliyinin əməkdaşları üçün təlimlər keçirilir.

İki həftə müddətinə nəzərdə tutulan treninqlər 4 istiqaməti əhatə edir: natiqlik, emosiyaların və stressin idarə edilməsi, "Mind Map" (Beyin xəritəsi) və "Time Management" (Zamanın idarə edilməsi).

Milli Kitabxanada keçirilən təlimlərdə iştirakçıları maraqlandıran suallar ətrafında müzakirələr aparılır, müxtəlif praktik tapşırıqlar icra olunur.

Təlimlər müasir dünya təcrübəsi əsasında, yeni dövrün tələblərinə uyğun və qabaqcıl format üzərində hazırlanmış, rəhbər vəzifəli şəxslərdə peşəkar idarəetmə biliklərinin artırılması, onlara məsul olduğu proseslər və tabeliyindəki işçiləri daha effektli idarə edə bilmə səriştələrini özündə ehtiva edir. İştirakçılar təhlil etmə, streslə mübarizə, vaxtın idarə edilməsi, informasiya axının tənzimlənməsi, komanda qurma bacarığı və s. səriştələrə yiyələnmiş olacaqlar.

Dekabrın 22-dək davam edəcək treninqlərin sonunda iştirakçılara sertifikatlar təqdim olunacaq.

# "Muğam axşamları"nda Əhməd Bakıxanov yad olundu

Beynəlxalq Muğam Mərkəzinin (BMM) "Muğam axşamları" layihəsinin növbəti təqdimatı ustad tarzən, Xalq artisti Əhməd Bakıxanovun 130 illiyinə həsr olundu.



17 dekabrda keçirilən konsertdə tarzən Xalq artisti Ramiz Quliyev və Əməkdar artist, xanəndə Sevinc Sarıyeva tələbələri ilə birlikdə çıxış etdilər.

Ramiz Quliyev Əhməd Bakıxanovun həyat və yaradıcılığından danışaraq xatirələrini bölüşdü. Bildirdi ki, görkəmli sənətkar daim axtarışlarla dolu geniş və çoxşaxəli yaradıcılığı ilə Azərbaycanın musiqi sənəti xəzinəsinə dəyərli töhfələr verib. Muğam aləminin mükəmməl bilicisi olan və tar ifaçılığının sirlərinə dərindən yiyələnən, yüksək istedada malik tarzən xalqımızın bu misilsiz mədəni-mənəvi irsini bütün fəaliyyəti boyu klassik ənənələrə sədaqətlə qoruyub yaşadıb. Onun ifa etdiyi muğamlar, eləcə də bəstələdiyi mahnı və təsniflər parlaq sənət nümunələri kimi musiqimizin qızıl fondunda ayrıca yer tutur. Ə.Bakıxanovun təşkilatçısı və uzun illər ərzində rəhbəri olduğu xalq çalğı alətləri ansamblı zəngin repertuarı ilə seçilir, ölkənin mədəni həyatında yaxından iştirak edir. "Musiqi salnaməmizə mühüm səhifələr yazmış tar ifaçılarının bütöv bir nəsli məhz Əhməd Bakıxanovun yetirmələridir. Mən ilk dəfə filarmoniyaya solist kimi qəbul olunanda sənətkarla tanış oldum. Onun rəhbərliyi ilə fəaliyyət göstərən ansambllar respublikamızın ən öncül kollektivləri kimi şöhrət qazanıb", – deyə R.Quliyev bildirdi.

Daha sonra konsert proqramı təqdim olundu. İlk olaraq Ramiz Quliyev solo muğam ifaları ilə çıxış etdi. Konsertin ikinci hissəsində Əməkdar artist Sevinc Sarıyeva və tələbələri muğam və təsniflərdən ibarət proqramla çıxış etdilər. Xanəndələri BMM-in solistləri Rəşad İbrahimov (tar), Təbriz Yusubov (kamança), Əməkdar artist Çinarə Heydərova (qanun), Rafael Əsgərov (balaban), Vasif Yusibli (ud) və Vüsal Bayramov (nağara) müşayiət edirdi.

**Lalə Azəri**

# Türk dövlətləri: Şərq və Qərb arasında körpü

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda "Türk dövlətləri: Şərq və Qərb arasında körpü" adlı dəyirmi masa keçirilib.



Fonddan bildirilib ki, tədbirə Bakı Dövlət Universiteti (BDU) Şərqşünaslıq fakültəsinin 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan şərqşünaslığı Şərq-Qərb elmi-mədəni və ictimai-siyasi dialoqu kontekstində" beynəlxalq elmi konfransın qonaqları da qatılıb. Sözügedən konfransın təşkilinə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu da dəstək verib.

Fondun prezidenti Günay Əfəndiyeva dəyirmi masa iştirakçılarına Türk dünyasının qədim mədəni irsinin öyrənilməsi, qorunması və dünyada həyata keçirdikləri layihələr haqqında məlumat verib. O, türk xalqlarının Şərq və Qərb sivilizasiyalarının qovuşduğu coğrafiyada məskunlaşmasından bəhs edərək, onların Avropa və Asiya arasında elmi-mədəni mübadilələrdə oynadığı rolun əhəmiyyətinə diqqət çəkib.

Dəyirmi masada çıxış edən BDU-nun rektoru Elçin Babayev türk dövlətləri arasında bütün sahələrdə genişlənən münasibətlərin türk birliyi ideyasının inkişafına təkan verdiyini deyib, Türk Mədəniyyəti və İrsi Fondunun bu yöndə fəaliyyətini yüksək qiymətləndirib.

Milli Məclisin deputatları Jalə Əliyeva, Nizami Cəfərov, Vüqar İskəndərov dəyirmi masanın əhəmiyyətindən bəhs ediblər. Vurğulanıb ki, türk xalqlarının məskunlaşdığı coğrafiya özlüyündə onların Avropa və Asiya arasında iqtisadi, siyasi, mədəni əlaqələrdə fəal iştirakını şərtləndirib.

Dəyirmi masada L.Qumilyov adına Avrasiya Milli Universiteti (Qazaxıstan) Türkologiya fakültəsinin professoru Nurila Şahmerdanova, Oş Dövlət Universiteti (Qırğızıstan) Şərqşünaslıq fakültəsinin professoru Baybolot Abitov, Ankara Universitetinin elmi işlər üzrə prorektoru Mustafa Fənər, Daşkənd Dövlət Şərqşünaslıq Universiteti Ərəb filologiyası kafedrasının müdiri professor Şarustam Şamusarov, Macarıstanın Eotvos Lorand (ELTE) Universiteti Şərqşünaslıq fakültəsinin müəllimi Andras Czentnar, Varşava Universiteti (Polşa) Şərqşünaslıq fakültəsinin dekanı professor Pyotr Taraka çıxış ediblər. Türk dövlətlərinin Avrasiya məkanında rolu haqqında fikir mübadiləsi aparılıb.

Fond adından iştirakçılara xatirə hədiyyələri təqdim olunub.

Tədbirin bədii hissəsində türk dövlətlərindən olan sənətçilərin ifasında mahnılar, milli musiqilər səslənib.



# Qoy, həmişə teatr olsun!

## ATXİ-nin "Milli klassika" festivalı başa çatdı

*əvvəli səh. 1-də*

Festivaldan əvvəl də baxdığım, aralarında yenilərinin də olduğu ümumən 13 tamaşa, üstəlik, müsabiqədənkənar bir səhnə işini də izlədim. Ayrıca qənaətlərimə xəsislik etsəm də, bölgədən paytaxta, peşəkardan həvəskara, təcrübəlidən tələbə işinə ümumi ansambl üçün maraqlı cəhdlər az deyildi və bu barədə təyində əsasən "işıq gələn tərəf" ağır basır.

Dekabrın 16-da festivalın bağlanış mərasimi oldu. Bağlanışdan öncə dahi Hüseyn Cavidin "Ana" mənzum dramına Şuşa Dövlət Musiqili və Gəncə Dövlət Dram teatrlarının fərqli və maraqlı quruluşlarında baxdıq. Ardınca isə mükafatlandırma mərasimi reallaşdı.

Tədbirdə çıxış edən ATXİ-nin sədr müavini Xalq artisti, Dövlət mükafatı laureatı Hacı İsmayılov möhtəşəm sənət bayramı münasibətilə teatrsevərləri təbrik etdi, teatr festivallarının Azərbaycanın mədəniyyət tarixində əhəmiyyətli rolundan danışdı. Dedi ki, bu cür layihələr teatra kütləvi marağına, eləcə də ayrı-ayrı teatrlarda çalışan yaradıcı insanların dialoquna töhfə verir.

Festivalın yekunları barədə məlumat verən Xalq artisti qeyd etdi ki, sənət bayramında 11 teatr və 1 təhsil ocağı 13 tamaşa nümayiş etdirib. Lənkəran Dövlət Dram Teatrı festivala müsabiqədənkənar qoşulub. Tanınmış teatr mütəxəssislərindən Xalq artistləri Ramiz Fətəliyev (sədr), Hacı İsmayılov, Əməkdar incəsənət xadimi Bəhram Osmanov, Əməkdar artist Azad Şükürov, teatrşünaslar Aida Qafarova, Dağlar Yusifov, aktyor-pedaqoq Məhəmməd Verdiyevdən ibarət münsiflər heyətinin qızğın müzakirələri nəticəsində festivalın nəticələri müəyyən olunub.

Tədbir iştirakçıları festival çərçivəsində oynanılan tamaşalardan parçaları əks etdirən videoçarxa da baxdılar. Ardınca ayrı-ayrı nominasiyalar üzrə bütün iştirakçılar mükafatlarına qovuşdular.

İlk olaraq "Ən yaxşı tamaşa" nominasiyasında Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının "Min bir gecə"si (F.Əmirov) seçildi. "Ən yaxşı kukla tamaşası" isə Azərbaycan Dövlət Kukla Teatrının "Məlikməmməd" nağıl-tamaşası oldu.

"Ən yaxşı aktyor oyunu" nominasiyasının mükafatını Ağdam Dövlət Dram Teatrının aktyoru və baş rejissoru Kərim Həsənov N.Vəzirovun "Ağakərim xan Ərdəbili" tamaşasındakı baş roluna görə aldı.

"Milli klassik poeziyanın səhnə həlli"ndə Gəncə Dövlət Kukla Teatrının "Xeyir və Şər"i fərqləndi. "II dərəcəli rolun uğurlu ifaçısı" nominasiyasının qalibi isə Əməkdar artist Asif Şirinov oldu. O, Füzuli Dövlət Dram Teatrının "Yağışdan çıxdıq, yağmura düşdük" (N.Vəzirov) tamaşasındakı Cəbi obrazına görə təltif edildi.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin istedadlı tələbə-aktyorları da mükafatsız qalmadılar. "Milli klassik dramaturgiyada yeni forma axtarışları" nominasiyasında "Şeytan müsafirləri" (M.F.Axundzadənin əsərləri əsasında), "Uğurlu plastik həll"də isə "Tamahkar" (S.S.Axundov) tamaşaları seçildilər.

Münsiflər heyətinin xüsusi diplomları isə Sumqayıt Dövlət Dram Teatrının "Hacı Qara"sına (M.F.Axundzadə), Şuşa Dövlət Musiqili Dram və Gəncə Dövlət Dram teatrlarının "Ana" tamaşalarına (H.Cavid) nəsib oldu.

Qax Dövlət Kukla Teatrının "O olmasın, bu olsun" (Ü.Hacıbəyli), Qusar Dövlət Ləzgi Dram Teatrının "Hicran" (S.Rəhman) tamaşaları da festivaldan münsiflər heyətinin xüsusi diplomu ilə qayıtdılar.

Lənkəran Dövlət Dram Teatrının "Casus"u (K.Abdulla) isə müsabiqədənkənar tamaşa kimi təşəkkürnamə ilə təltif edildi.

Özünü geniş tamaşaçı auditoriyasında, həm də teatr mütəxəssisləri qarşısında yenidən nümayişə çıxaran teatr və teatr təmsilçilərinin növbəti teatr bayramı da tarixə qovuşdu.

**Həmidə Nizamiqızı**

# Oqtay Məmmədağa oğlu Rəcəbov

Azərbaycan musiqi mədəniyyətinə ağır itki üz vermişdir. Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrindən biri, Əməkdar müəllim, Əməkdar incəsənət xadimi, pedaqoji elmlər doktoru, professor, Prezident təqaüdçüsü Oqtay Rəcəbov 15 dekabr 2022-ci il tarixində həyatının 81-ci ilində vəfat etmişdir.



Oqtay Məmmədağa oğlu Rəcəbov 1941-ci il aprelin 5-də Bakıda anadan olmuşdur. O, 1958-1963-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fizika fakültəsində təhsil almış, 1964-cü ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Bəstəkarlıq fakültəsinə daxil olmuş və 1971-ci ildə görkəmli bəstəkar professor Cövdət Hacıyevin sinfini bitirmişdir. Onun bir bəstəkar olaraq yetişməsində və dünyagörüşünün formalaşmasında Qara Qarayev, Fikrət Əmirov, Dmitri Kabalevski kimi görkəmli sənətkarların da böyük təsiri olmuşdur.

1960-cı ildən Bakı şəhərinin bir sıra orta məktəblərində fizika müəllimi, daha sonra Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutunda kiçik elmi işçi kimi fəaliyyət göstərən O.Rəcəbovun musiqiyə olan həvəsi üstün gəlmiş və o, həyatını bütünlüklə musiqi sənətinə, bəstəkarlığa həsr etmişdir.

O.Rəcəbov "Göyçək Fatma", "Xeyir və Şər", "Tıq-tıq xanım", "Sərçəcik" uşaq operaları, "Ağac gözəl" baleti, "Əlin cibində olsun", "Şeytanın yubileyi" musiqili komediyaları, 7 simfoniya (7-cisi "Xocalı" simfoniyası), simfonik poemalar, kantata və oratoriyaların ("Xocalı avazları", "Heydər", "Çingiz" və s.), instrumental konsertlərin, kamera-instrumental əsərlərin, kinofilmlərə yazılmış musiqilərin müəllifidir.

Onun yaradıcılığında uşaqlar üçün yazılmış və uşaqlara həsr olunmuş əsərlər xüsusi yer tutur. Ümumiyyətlə, gənc nəslin musiqi-estetik tərbiyəsi bəstəkarın daima diqqət mərkəzində olmuşdur. O.Rəcəbov məktəblilərin musiqi-estetik tərbiyəsi və ümumtəhsil məktəbləri üçün eksperimental musiqi proqramlarının hazırlanması və tətbiqi sahəsində fəaliyyətinə görə Respublika komsomolu mükafatına layiq görülmüşdür.

1977-ci ildən etibarən O.Rəcəbov "Məktəblilərin musiqi klubu" adlı silsilə televiziya verilişlərinin aparıcısı olmuş, uzun illər bu verilişlərin hazırlanmasında fəal çalışmışdır.

Bəstəkarın elmi fəaliyyəti də önəmlidir. O, 1985-ci ildə Moskvada "Azərbaycan bəstəkarlarının uşaqlar üçün musiqisi və məktəblilərin musiqi-estetik tərbiyəsi" mövzusunda namizədlik dissertasiyasını (fəlsəfə doktoru) müdafiə etmiş, daha sonra Azərbaycan Pedaqoji Elmlər üzrə Elmi Tədqiqat İnstitutunda çalışaraq pedaqoji elmlər doktoru elmi dərəcəsini qazanmışdır.

2009-cu ildə O.Rəcəbov Rusiya Federasiyası Pedaqoji və Sosioloji Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. O, "Musiqi və mənəvi tərbiyə", "Uşaqlar və mahnılar" adlı monoqrafiyaların, ümumtəhsil məktəblərinin I-VIII sinifləri üçün musiqi dərslik, proqram və metodiki tövsiyələrin müəllifi, "Azərbaycan bəstəkarlarının uşaq mahnıları antologiyası"nın tərtibçisidir.

O.Rəcəbov fəal ictimai-musiqi xadimi kimi 1974-cü ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, habelə uzun illər bu təşkilatın Uşaq musiqisi bölməsinin rəhbəri olmuşdur. Respublikanın musiqi həyatında fəal iştirak edən O.Rəcəbov beynəlxalq simpozium və konfranslarda Azərbaycan musiqi elmini yüksək səviyyədə təmsil etmişdir.

Unudulmaz bəstəkarımız Oqtay Rəcəbovun işıqlı xatirəsi xalqımızın qəlbində daima yaşayacaqdır.

Allah rəhmət eləsin.

**Azərbaycan Bəstəkarlar İttifaqı**

# Aktrisa Məqsudə Əliyeva vəfat edib

Lənkəran Dövlət Dram Teatrında həvəskar aktrisa kimi fəaliyyət göstərmiş Məqsudə Əliyeva uzun sürən xəstəlikdən sonra, 2022-ci il dekabrın 8-də, 57 yaşında dünyasını dəyişib.

Məqsudə Həsənağa qızı Əliyeva 9 mart 1965-ci ildə Lənkəran şəhərində anadan olub. 1981-ci ildən N.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında həvəskar aktrisa kimi fəaliyyət göstərib. "Mahmud və Məryəm"də qulluqçu qız, "Vicdanın hökmü"ndə rus qızı, "Pul dəlisi"ndə solist, "Qaraca qız"da Nərgiz, "Onun iki qabırğası"nda Qumaş kimi rollarda çıxış edib.

Televiziya tamaşaçılarının yadında 2016-cı ildə yayımlanan "Günəşim ol" teleserialında ("Azad Azərbaycan" kanalı) Zərnişan obrazı ilə qalıb.

Allah rəhmət eləsin.

Lənkəran Dövlət Dram Teatrının rəhbərliyi və kollektivi iş yoldaşları, teatrın aktyoru Əbülfəz Axundova əmisi

**Rəfaddin kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

# Günahsızlığın kod adı...

Xəbər verdiyimiz kimi, 17-18 dekabrda Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında yeni səhnə əsərinin premyerası olub.

Mədəniyyət Nazirliyinin sifarişi ilə hazırlanan "Kod adı "V.X.A" tamaşası istiqlal şairi, bu il 130 illiyini qeyd etdiyimiz repressiya qurbanı Əhməd Cavadın (1892-1937) xanımı Şükriyyə Axundzadənin və ötən əsrin 30-cu illərində repressiyaya məruz qalmış digər Azərbaycan aydınlarının xanımlarının xatirəsinə həsr olunub.

Səhnə əsərinin müəllifi və tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, quruluşçu rəssamı Mustafa Mustafayev, bəstəkarı Azər Hacıəsgərli, işıq üzrə rəssamı Vadim Kuskovdur. Tamaşanın plastik həlli Ceyhun Dadaşova məxsusdur.

Tamaşa seyrçini məşum dövrlə, soyuq divarlar arasındakı acı hekayələr, toz basmış arxiv materialındakı insan taleləri ilə üz-üzə qoyur. İki hissədən ibarət, ümumilikdə dörd saat yarım davam edən insanlıq dramı (Azərbaycan teatr tarixində bu janrda ilk böyük səhnə aktı) bütünlükdə o qara, qanlı, əzablı illərin ümumi təhlili üçün mükəmməl cəhddir.

Teatrın, demək olar ki, bütün truppasının məşğul olduğu tamaşanın səhnə və işıq tərtibatı, bir sözlə, texniki həlli möhtəşəmdir. Biz geyimdən işığa uzaq Qazaxıstan çöllərini, siçovullu saxlama kameralarını, vahiməli dindirmə kabinələrini, üfunəti bağıryaran vaqonları, sazağı, şaxtası qandonduran soyuq düşərgələri, hər cür fiziki, mənəvi zorakılığa şahidlik edən kirli islah düşərgələrini bir səhnə həllində, bəlli ölçülü məkanda görə və təsirinə düşə bilirik.

Tarixi faktların hakim olduğu dramda repressiyaya məruz qalıb ləyaqətini qorumağın nümunəsini göstərən Şükriyyə Axundzadənin timsalında ümumilikdə 26 min qadının məşəqqətli həbs, sürgün həyatına baxa, onların hiss və ağrılarını, həm də inadkarlıqla ölməyən ümidlərinin ağuşunda, təzadlı olsa da, təsəlli tapa bilirik.

Sənədli dram janrında (verbatim) olan səhnə əsərində rejissor gerçək mətnlərə, istintaq materiallarına, real insanların taleyinə əsaslansa da bizə öz müəllif təxəyyülündən süzülüb gələn yanaşmasının təzahürünü də ifadə edə bilir.



Zənnimcə, belə olmasaydı, bu böyüklükdə həyatın ayrı-ayrı oyun nümayişinə, səhnədə tamaşaçı ilə kəsintisiz ünsiyyətinə, ön-arxa plan fərqi olmadan, prosesə üzvi bağlılığına nail olmaq müşkül olardı. Bu mənada səhnə aktının həll prosesində biz tamaşaçı olaraq reallığın çağdaş səhnə prosesinə inteqrasiyasında rejissor ustalığının ayani şahidinə çevrilirik.

Tamaşanın uğurunda onun qadın qəhrəmanları ilə bərabər, onların əzabları, səhnə ağrıları üzərində oyun "quran" personajların oyunu da çox təsirli idi.





Bu yerdə səhnə əsərinin əsas qəhrəmanlarının arxiv sənədlərindəki iş nömrələri ilə birgə diqqətə çatdırmaq istərdim.

30024-Şükriyyə Axundzadə (Kəmalə Müzəffər), 2385-Ceyran Bayramova (Leyli Vəliyeva), 30037-Ümgülsüm Sadıqzadə (Qəmər Məmmədova), 28965-Xavər Qarayeva (Şəfəq Əliyeva), 2496-Ayna Sultanova (Günel Məmmədova), 30418-İzzət Vəzirova (Gülər Nəbiyeva), 10506-Dilbər Axundzadə (Aygün Fətullayeva), 30419-Şövkət Məmmədxanova (Səbinə Məmmədzadə), 30415-Tamara Hüseynova (Asya Atakişiyeva), 1775-Zivər Əfəndiyeva (İlqarə Tosova), 30510-Pənfiliya Tanalidi (Zülfiyyə Alhüseynova), 2239-Firəngiz Rzayeva (Mehriban Abdullayeva), 29954-Xədicə İzmayılova (Sevinc Əziz), 22482-Güllü Camalbəyova (Zemfira Əbdülsəmədova), 30789-Anna Kisilyova (Könül Əbilova), 30585-Sitarə Qarayeva (Nübar Novruzova), 30212-Xədicə Qayıbova (Fəridə Qurbanova), 23346-Kriminal avtoritet (Naibə Allahverdiyeva), 30418-Mariya Paşina (Təhminə Məmmədova), 82185-Yelizaveta Qorbunova (Yasəmən Məmmədova), 30221-Kövsər Seyidbəyli (Nəsibə Eldarova), 82231-Xədicə Kəngərlinskaya (Xalidə Əlimənmədova), 2385-Gülarə Qədirbəyova (Nuriyyə Əliyeva), 2334-Suğra İsazadə (Şəbnəm Hüseynova), 1314-Sənubər Eyyubova (Simuzər Ağakişiyeva), 29997-Natalya Talıblı (Mehriban Hüseynova), 30001-Məryəm Mirqədirova (İradə Rəşidova), 29998-Ruhiyyə Qurbanova (Güşvər Şərifova), 29981-Firuzə Eminbəyli (Gülbəniz Lətifova), 2230-Mədinə Qiyasbəyli (Hüsniyyə Əhmədova), 30610-Mələk Qədirli (Xəyalə Qasımova), 1746-Alyona Şaxova (Zümrüd Quliyeva), 29988-Nəimə Məmmədova (Aybəniz Heydərova), 30073-Anastasiya Qasımova (İlahə Əmirxanova), 30527-Fəridə Salamzadə (Nuranə Hüseynova), 10222-Səfurə Səlimova (Venera Abbasova).

Onlarla bərabər tamaşadakı repressiya qurbanı kişilər: Qəzənfər Musabəyov (Kərəm Hadızadə), Həmid Sultanov (Araz Pirimov), Qoca qazax (Vahid Əliyev), Məmməd (Hilal Dəmirov), Orxan (Bəhram Əliheydər), Şaban (Anar Səfiyev), Əziz (Nurlan Süleymanlı) bizi səhnədə baş verənlərin gerçəkliyinə, yaşanmışlığın ağrılı təkrarına yol yoldaşı olmağa "vadar" edə bildilər.

Sözsüz ki, onlara işgəncə verə-verə əclaflığın, əslində, imperiya sevdası ilə ideoloji qapanın arasında sıxılan quduz "NKVD" (Stalin dövründə Xalq Daxili İşlər Komissarlığı) fəallarının səhnə cildindəki aktyor qrupu – komissarlar (Rəşad Səfərov, Ədalət Əbdülsəməd), müstəntiqlər (Şövqi Hüseynov, İlham Əsədov, Vüqar Məmmədəliyev), konvoy rəisi (Yasin Qarayev), stansiya rəisi (Vahid Orucoğlu), Qriqoryan (Elnur Kərimov), konvoylar (Elşən Şıxəliyev, Elnur Bəhramxan, Tahir İsmayılov, Yusif Dadaşov), nəzarətçilər (Elşən Hacıbabayev, Anar Seyfullayev, Aydın Dəmirov), Musatov (Ramil Məmmədov), Bakuyev (Nofəl Vəliyev) ... – bizə o qanlı rejimə, xalqın işıqlı ziyalıları və onların ailələrini günahsız qırğına verənlərin əsl simalarına yenidən nifrət ilə baxmaq, üreyimizdə dönə-dönə söyüb-söyləmək imkanı "verdilər".

Ümumilikdə tamaşa ağır faciələrin təsviri fonunda cərəyan etsə də, sabaha bir ümid var: bir gün bu əzab bitəcək, evlərinə qayıdıb əzizlərinə qovuşacaqlar!

Bəli, ən ağrılı, ən ümidsiz, ən alçaldıcı məqamda belə ölməyən ümidlə çıxılan yolda, gec də olsa, həqiqətini isbat edib, gecikmiş ədalət ilə rastlaşan "Kod adı... V.X.A" ("Vətən xainlərinin arvadları") olanların əzablarını arxiv materialı olmaqdan xilas edib bütün ruhu ilə tamaşaçıya qovuşduran müəllif Mehriban Ələkbərzadə yaşanan bu ağrını tamaşaçı olaraq bizə də "amansızlıqla" yaşada bildi...

**Həmidə Nizamiqızı**

**P.S.** *Tamaşaya və mövzuya daha ətraflı şəkildə qayıdacağıq.*

# "Səttar Bəhlulzadə fotolarda" – sənətkarın ev-muzeyində sərgi

Dekabrın 15-də Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi Xalq rəssamı Səttar Bəhlulzadənin (1909-1974) anadan olmasının 113-cü ildönümü tamam olub.

Həmin gün sənətkarın Əmircan qəsəbəsində yerləşən ev-muzeyində "Səttar Bəhlulzadə fotolarda" adlı fotosərgi keçirilib. Tədbirdə muzeyin direktoru sənətşünaslıq üzrə fəlsəfə doktoru Pərzad Abdinovanın "Səttar Bəhlulzadə. Gözəlliyə həsr edilmiş həyat" monoqrafiyasının təqdimatı da olub.

Tədbirdə Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, Mədəniyyət Nazirliyi Muzey, qalereya və sərgilər şöbəsinin sektor müdiri Murad Məmmədov və digər qonaqlar iştirak ediblər.

P.Abdinova qonaqları salamlayaraq sərgi haqqında məlumat verib. Qeyd edib ki, sərgidə böyük rəssamın sənətsevərlərə tanış olmayan, əksəriyyəti ilk dəfə nümayiş olunan, sənətkarın ailəsinə məxsus nadir fotolar yer



alıb. Fotoların bir qismi Səttar Bəhlulzadənin gənclik dövrünə, Moskvada keçirdiyi tələbəlik illərinə aiddir. Digər nümunələr məşhur Meksika rəssamı David Sikeyros, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ikinci katibi P.Yelistratov, həmkarları Xalq rəssamları Toğrul Nərimanbəyov, Tağı Tağıyev, Kamil Xanlarov, Xalq artisti Gülağa Məmmədov və digər tanınmış şəxsiyyətlərlə birlikdə olan fotolardır.

"Səttar Bəhlulzadə. Gözəlliyə həsr edilmiş həyat" monoqrafiyasının müəllifi P.Abdinova nəşrin ərsəyə gəlməsi barədə danışıb, kitabın çapına görə Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirib.

Qeyd olunub ki, monoqrafiyada Səttar Bəhlulzadənin həyat və yaradıcılığı geniş tədqiq edilib. Nəşrdə həmçinin rəssamın bu vaxta kimi araşdırmaya cəlb olunmayan gündəliklərindəki məlumatların (mətn və rəsmlər) ilk dəfə müəllifin rəngkarlıq və qrafik əsərləri ilə müqayisəli şəkildə təhlili aparılıb.

Tədbirdə "Səttar Bəhlulzadənin yaradıcılığında Qarabağ" mövzusunda videomaterial nümayiş etdirilib.

Sonda qonaqlar S.Bəhlulzadənin fotolarından ibarət sərgi ilə tanış olublar.

**Ulduz Rəfili – 100**

# Mühəndislikdən teatr rejissorluğuna...

Azərbaycanın xanım teatr rejissorlarından söz açılanda ilk olaraq o yada düşür. Əməkdar incəsənət xadimi, professor Ulduz Rəfili. Görkəmli sənətkar həm rejissor, həm də pedaqoq kimi milli teatr sənətinin inkişafı yolunda böyük xidmətlər göstərib. Bu il ilk xanım rejissorlarımızdan olan Ulduz Rəfilinin anadan olmasının 100 illiyidir.

15 dekabr 1922-ci ildə Gəncədə məşhur Rəfibəylilər nəslindən olan Saleh Rəfilinin ailəsində bir qız uşağı dünyaya göz açır. Adını Ulduz qoyurlar. O, hələ kiçik ikən ailəyə bədbəxtlik üz verir, atası qəflətən vəfat edir. 12 yaşı olanda nəsilləri sovet rejiminin repressiyasına məruz qalır... Çətin güzəran və dolanışıq üzündən Ulduz 1934-cü ildə bacısı ilə Bakı şəhərinə köçürlər. O, 1938-ci ildə Moskvada yaşayan böyük bacısı Səmayənin yanına gedir. Sənədlərini Sənaye Texnikumuna verir. Sonra Moskva Dəmiryol Nəqliyyatı üzrə Mühəndislər İnstitutunda oxuyur. Eyni zamanda Moskva metropolitenində növbə rəisi vəzifəsində çalışır. II Dünya müharibəsi başa çatandan sonra Bakıya dönür. İndiki Mədəniyyət və İncəsənət Universitetinin Rejissorluq fakültəsinə daxil olur. Tələbə ikən C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında məsləhətçi işləyir. Eyni zamanda Kitabxanaçılıq Texnikumunda müəllim kimi fəaliyyət göstərir.

1952-ci ildə ilk Azərbaycan qadın teatr rejissoru kimi Gənc Tamaşaçılar Teatrının rus bölməsində işə başlayan Ulduz Rəfili 1972-1975-ci illərdə teatrın baş rejissoru olur. Burada Azərbaycan və rus bölmələrində tamaşalar hazırlayır.

Araşdırmalarda qeyd olunur ki, Ulduz Rəfili Gənc Tamaşaçılar Teatrında Azərbaycan və dünya ədəbiyyatı müəlliflərinin 50-dən çox əsərinə quruluş verir.

Teatr sahəsindəki uğurlu fəaliyyətinə görə 1957-ci ildə SSRİ Mədəniyyət Nazirliyinin, 1959-cu ildə Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı ilə təltif olunur. 1964-cü ildə isə respublikanın "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülür.

Rejissorun səhnələşdirdiyi bir çox tamaşalar ümumittifaq festivallarında diplom və mükafatlara layiq görülür. Gənc Tamaşaçılar Teatrının müdiriyyəti 1972-ci ildə respublikanın Mədəniyyət Nazirliyinə sənətkar haqqında təqdim etdiyi xasiyyətnamədə yazıb: "Ulduz Rəfili Azərbaycan teatrının ilk professional qadın rejissoru olaraq 1952-ci ildən Gənc Tamaşaçılar Teatrında çalışır. İyirmi illik əmək fəaliyyəti müddətində 50-dən artıq tamaşaya – V.Hüqonun "Qavroş", "Ümid nəğməsi", "Hünər", S.Qədirzadənin "Şirinbala bal yığır", "Xoruz", X.Əlibəylinin "Dovşanın ad günü", C.Məmmədovun "Dan ulduzu", K.Qoldoninin "İki ağanın bir nökəri", M.Təhmasibin "Rübailər aləmində", Anarın "Ötən ilin son gecəsi", S.S.Axundovun "Qaraca qız" və s. əsərlərə maraqlı quruluşlar verib. Onun qurduğu tamaşalar öz müasirliyi, bədii-ideya xüsusiyyətləri və yaradıcılıq mövqeyi baxımından seçilib. Teatrda gənc aktyorların yetişməsində və dramaturqlarla yeni pyeslərin seçilib repertuara daxil edilməsi işində həmişə aktivdir".

Pedaqoji sahədə də uğurlu fəaliyyət göstərən rejissor 1975-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında Vokal və opera hazırlığı kafedrasının professoru olub. Tələbkar bir müəllim olan Ulduz Rəfili tələbələrini daim hazırlıqlı olmağa, mənsub olduğu xalqın dəyərlərini dərindən öyrənməyə və dövlətini sevməyə səsləyib. O, bu təhsil ocağında çalışdığı müddətdə S.Raxmaninovun "Aleko", P.Çaykovskinin "İolanta", F.Əmirovun "Sevil", Motsartın "Fiqaronun toyu" və s. əsərləri uğurla səhnələşdirib.



Enişli-yoxuşlu həyat yolu, rəngarəng və maraqlı yaradıcılığı ilə yaddaşlarda əbədiləşən ilk qadın teatr rejissorumuz Ulduz Rəfili 8 yanvar 2006-cı ildə Bakıda vəfat edib.

**Savalan Fərəcov**

# Hər mükafat yeni yaradıcılıq ideyaları üçün motivasiyadır

## MDB-nin humanitar sahə üzrə mükafatçılarının təəssüratı

Xəbər verdiyimiz kimi, 12-13 dekabrda Özbəkistanın paytaxtı Daşkənddə MDB-nin iştirakçısı olan dövlətlərin Yaradıcı və elmi ziyalılarının XV Forumunda "Birlik ulduzları" dövlətlərarası mükafatının builki laureatlarının təltif edilməsi mərasimi keçirilib.

Azərbaycandan Xalq rəssamı, heykəltəraş Natiq Əliyev "Birlik ulduzları" mükafatı, gənc azərbaycanlı memar İlqar Manaflı isə "Debütlər Birliyi" mükafatı ilə təltif olunub.

N.Əliyev deyib: "Forumda görkəmli yaradıcı şəxsiyyətlər çox idi. Onlardan bəzilərini şəxsən tanıyırdım, bəziləri ilə qiyabi tanış idim, orada onlarla ünsiyyət saxlamaq, fikir mübadiləsi aparmaq imkanı yarandı. Məşhur heykəltəraş İqor Burqanov mənim işlərimlə yaxşı tanış olduğunu dedi və birgə işləməyi təklif etdi. Belə insanlarla ünsiyyət mənə güclü təsir bağışladı, fikrimdə yeni yaradıcılıq ideyaları əmələ gəldi. Bundan sonra yeni qüvvə ilə yaradacağam, bundan mənəvi məmnuniyyət qazanacağam...".





"Birlik ulduzları" MDB-də humanitar sahə üzrə əsas mükafatdır. 2009-cu ildə MDB Humanitar Əməkdaşlıq Şurası və MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu tərəfindən təsis edilib. Mükafat MDB iştirakçısı olan hər ölkədən bir təmsilçiyə verilir. "Debütlər birliyi" mükafatı ilə isə sənətdə, peşədə uğurlara görə hər ölkədən bir gənc təltif olunur.

Hər iki laureat təltiflə bağlı təəssüratını media mənsubları ilə bölüşüb.

***

Bu mükafatı böyük sevinc və minnətdarlıqla qəbul etdim. Hər mükafat yeni yaradıcılıq ideyaları üçün motivasiyadır. O, yeni ideyalara ruhlandırır, stimul verir.

Xalq rəssamı Natiq Əliyev bu sözləri AZƏRTAC-a müsahibəsində söyləyib.

Natiq Əliyevin monumental əsərləri Azərbaycanla yanaşı dünyanın bir sıra ölkələrində ucaldılıb.

Onun 1990-cı ildə həmkarı Rahib Həsənovla birgə yaratdığı Əliağa Vahidin abidəsi bir sıra məziyyətlərinə görə Azərbaycan heykəltəraşlıq sənətində əlamətdar hadisə kimi qəbul edilib.

Natiq Əliyev Ümummilli lider Heydər Əliyevin Kiyev, Tbilisi, Həştərxan və Belqradda ucaldılmış abidələrinin, Həştərxanda knyaz Vladimirin, Bakıda rumın bəstəkarı Corce Eneskunun heykəllərinin, Şəkidə məşhur norveçli arxeoloq və səyyah Tur Heyerdalın büstünün və şair Bəxtiyar Vahabzadənin heykəlinin, Bakıda memar Zivərbəy Əhmədbəyovun və Avstriya bəstəkarı V.A.Motsartın, Belqradda serb yazıçısı Milorad Paviçin, Serbiyanın Novi-Sad şəhərində Üzeyir Hacıbəylinin, Ankara, Sarayevo, Mexiko şəhərlərində Xocalı soyqırımı qurbanlarına xatirə abidələrinin müəllifidir.

Memorial heykəltəraşlıq Natiq Əliyevin yaradıcılığında xüsusi yer tutur. O, bir çox tanınmış şəxsiyyətlərin (Məmməd Səid Ordubadi, Abdulla Şaiq, Cəlil Məmmədquluzadə, İlyas Əfəndiyev, Mirvarid Dilbazi, Cabir Novruz, Zeynal Cabbarzadə, Amaliya Pənahova, Həqiqət Rzayeva, Bəşir Səfəroğlu, Habil Əliyev, Zəlimxan Yaqub, Fikrət Qoca, Musa Yaqub və b.) xatirəsinə memorial xatirə lövhələr və məzarüstü abidələr yaradıb.

***

"Debütlər Birliyi" beynəlxalq mükafatının laureatı İlqar Manaflı İçərişəhər ərazisində "Xan bağı", paytaxtın Pirşağı və Əmircan kəndlərinin abadlıq və yenidənqurma layihələrinin müəllifidir.

O deyib: "Bu, mənim üçün tamamilə gözlənilməz idi. Axı mən öz işlərimi müsabiqəyə təqdim etməmişdim. Buna görə də MDB-yə üzv ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu İdarə Heyətinin sədri, Azərbaycanın Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlunun təqdim etdiyi bu mükafatı almaq mənim üçün çox xoş idi. MDB-nin yaradıcı və elmi ziyalılarının forumunun işində mənim doğma ali məktəbimin – Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədovanın iştirakı mənim üçün ikiqat sevindirici hal idi. Ona bu ali məktəbdə əldə etdiyim bilik və bacarıqlara görə minnətdarlığımı bildirdim".

İ.Manaflı Memarlıq və İnşaat Universitetini bitirdikdən sonra ali təhsilini Avstriyada (Donau University) davam etdirib. Gənc memar iqlim şəraiti və yerin ekologiyasının qorunub saxlanılması nəzərə alınmaqla memarlığın nəzəriyyə və praktikasını öyrənir.

İ.Manaflı 2017-ci ildə təsis etdiyi "MANARCH" memarlıq studiyasında öz ətrafına təşəbbüskar və yenilikçi gəncləri toplayıb. Elə həmin il studiya tenderdə qalib gələrək "Xan bağı" layihəsini həyata keçirməyə başlayıb. 2018-ci ildə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin gənc səfiri seçilib.

# Zərdabi irsinin yorulmaz tədqiqatçısı

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun öz tədqiqatları ilə Azərbaycan elminə dəyərli töhfələr verən onlarla alim və mütəxəssisi vardır. Azərbaycanın böyük şəxsiyyətlərinin, həmçinin bu şəxsiyyətlərin əlyazma irsini tədqiq edən və neçə-neçə kitabın ərsəyə gəlməsində zəhmət və səylərini əsirgəməyən alimlərimizin elmi fəaliyyəti həm institut, həm də elmi ictimaiyyət tərəfindən yüksək dəyərləndirilir.



Həm tədqiqat obyektinin, həm də tədqiqatçının eyni ildə yubileyinin keçirilməsi əlamətdar haldır. Bu il Azərbaycan ictimai fikir tarixində özünəməxsus yeri olan, milli mətbuatımızın banisi, tarixçi-etnoqraf Həsən bəy Zərdabinin (1842-1907) 180 illik yubileyi, onun layiqli tədqiqatçısı tarix üzrə fəlsəfə doktoru Esmira Cavadovanın isə 80 illiyidir.

Esmira Cavadova bir sıra elmi kitabların və məqalələrin müəllifidir. Lakin biz Zərdabinin də yubileyini nəzərə alıb bu yazımızda əməkdaşımızın yalnız böyük mətbuat fədaisi ilə bağlı kitablarından söz açmaq istəyirik. Tarixçi alimin H.Zərdabinin həyat və yaradıcılığı ilə bağlı "Sətirlərdə döyünən ürək" adlı ilk kitabı 1988-ci ildə çap olunmuşdur. Esmira Cavadovanın daha bir sanballı kitabı isə "Həsən bəy Zərdabinin etnoqrafik görüşləri"dir. Kitabın elmi redaktoru filologiya üzrə elmlər doktoru Paşa Kərimov, rəyçiləri akademik Teymur Bünyadov və professor İzzət Rüstəmovdur. Kitab filosoflar, tarixçilər, etnoqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Kitabın girişində müəllif elmi tərəqqinin sürətlə inkişaf etdiyi XX əsrdə keçmişimizin, maddi və mədəniyyət tariximizin araşdırılması üçün maarifçilərin etnoqrafik görüşlərinin öyrənilməsinin aktual olduğunu vurğulayır, bu sırada Həsən bəy Zərdabi yaradıcılığının böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırır.

Nəşrin "Zərdabda bir uşaq doğuldu" bölümündə H.Zərdabinin uşaqlığı, mollaxanadakı, dördsinifli rus məktəbindəki, Tiflis gimnaziyasında, Moskva Universitetindəki təhsili, bir sıra görkəmli ziyalılarla tanış olması, onların etnoqrafik görüşlərini öyrənməsi, təhsildən qayıdandan sonra Qubada məhkəmə katibi, daha sonra Bakıda realnı gimnaziyada "təbiyyat tarixi" müəllimi işləməsindən söz açan tədqiqatçı "Əkinçi" qəzetinin nəşrinə keçid alır və yazır: "Az tirajla, kiçik formatla nəşrinə baxmayaraq, "Əkinçi"nin çapdan çıxması bütün Azərbaycan xalqının mənəvi bayramı idi. "Əkinçi"nin nəşri Azərbaycan milli mətbuatının əsasının qoyulmasını xəbər verirdi".

Müəllif "Əkinçi" ətrafında birləşən Azərbaycan ziyalılarının fəaliyyətindən, qəzetin uğurlarından və sonuncu nömrədə oxuculara müraciətindən bəhs edir və yazır: "H.Zərdabi Azərbaycana qayıtdıqdan sonra xalq arasında maarifçilik fəaliyyətini genişləndirmiş, tərəqqinin, elmin, mədəniyyətin və qabaqcıl ideyaların xalq arasında yayılması uğrunda qızğın mübarizə aparmışdır. Onun yaradıcılıq fəaliyyəti çoxşaxəli olduğu üçün xalq arasında geniş şöhrət tapmışdır. O, yorulmaz ictimaiyyətçi, alim, jurnalist, istedadlı pedaqoq idi".

Kitabın "H.Zərdabinin əsərlərində əkinçilik mədəniyyətimiz" bölümündə Azərbaycan əkinçiliyi tarixinə kiçik ekskursiya edən tədqiqatçı Zərdabi yaradıcılığında əkinçilik mədəniyyəti problemlərinin qabarıq olduğunu xüsusi vurğulamış, onun öz əsərlərində Azərbaycanın təsərrüfat həyatının bir çox sahələri haqqında fikirlərini yüksək dəyərləndirmişdir. Zərdabinin "Əkinçi", "Kaspi", "Həyat", "İrşad", "Şərqi-Rus", "Novoye obozreniye" qəzetlərində və "Məktəb", "Dəbistan" jurnallarında çap olunmuş məqalələrinə müraciət edən müəllif onun əkinçilərə verdiyi dəyərli məsləhətlərindən, bir təbiətşünas kimi əkinçilik, taxılçılıq, pambıqçılıq, tütünçülük, meşəçilik, hətta heyvandarlıq sahəsini gözəl bilməsindən əhatəli bəhs açmışdır. Zərdabinin "Maldarlığın inkişafı və yaxşılaşdırılması tədbirləri haqqında", "Bizim payız əkinlərimizin xüsusiyyətləri", "Bakı qəzasında zəfəran istehsalı", "Şərqi Zaqafqaziyada suya ehtiyac" və s. məqalələrini, "Torpaq, su, hava" əsərini, eyni zamanda rus dilində qələmə aldığı bir sıra məqalələri tədqiqata cəlb edən E.Cavadova onun Volinin "Baramaqurdunun düzgün bəslənməsi üçün qısa rəhbərlik" adlı məqaləsini də rus dilindən tərcümə etdiyini və özünün də baramaçılıqla bağlı dəyərli fikirləri olduğunu diqqətə çatdırmışdır. Zərdabinin "Qafqazın kustar sənətləri", "Köçərilərin həyatından (naturadan)", "Elmi-heyvanat" silsilə məqalələri ("Qaramal" və s.) məqalələri isə "Maldarlıq məsələləri" bölümündə tədqiq edilmişdir.

Kitabın "Maddi mədəniyyət məsələləri" bölümündə Zərdabinin "Bədəni salamat saxlamaq düsturül-əməldir" adlı sağlamlığa dair məqalələr toplusundan geniş bəhs edərək ayrı-ayrı məqalələrin təhlilini verən müəllif alimin vəfatından sonra həmin əsərin Yusif Vəzir Çəmənzəminlinin təşəbbüsü ilə Kiyevdə təhsil alan azərbaycanlı tələbələr tərəfindən 1912-ci ildə "Gigiyena" adı ilə nəşr olunduğunu da diqqətə çatdırmışdır.

"Mənəvi mədəniyyət məsələləri" bölümündə Zərdabinin folklorla, aşıq poeziyası, məktəb, dil problemi, incəsənətlə bağlı gördüyü işlərdən söz açan müəllif "Türk nəğmələri" kitabından, "Bizim nəğmələrimiz", "Dil və din", "Dil davası", "Bakıda müsəlman teatrının binası", "Sərxoşluğa qarşı peyvənd", "Quyruq doğdu, çillə çıxdı", "Ayın fəzalarının Yer üzərində üzvi həyata təsiri", "İlanbalığı gəldi", "Təbəddülati-həvaiyyənin vücudi-heyvanatda hiss olunması" adlı məqalələrindən geniş söhbət açmışdır.

E.Cavadovanın nəşrə hazırladığı, akademik Teymur Kərimlinin elmi məsləhəti və filologiya üzrə elmlər doktoru Aybəniz Əliyeva-Kəngərlinin redaktorluğu ilə "Əkinçi" qəzetinin yubileyi münasibətilə çap olunmuş "Həsən bəy Zərdabi (Məlikov). Elmi-köməkçi biblioqrafik göstərici" də zərdabişünaslıq elminə böyük töhfədir. Tərtibçi-müəllif kitaba yazdığı "Millət fədaisi Həsən bəy Zərdabi" adlı ön sözdə mütəfəkkir alimin həyat və yaradıcılığı haqqında geniş məlumat vermişdir. Kitabda Zərdabinin həyat yolunun əsas tarixləri, seçilmiş fikirləri, M.F.Axundzadə, S.Ə.Şirvani, akademik Məmmədcəfər Cəfərov, Xalq yazıçısı Mirzə İbrahimovun "Əkinçi" qəzeti, Prezident İlham Əliyev, H.Vəzirov, F.Köçərli, A.Şaiq, Ə.Hüseynzadə və bir sıra alimlərin Zərdabi haqqında fikirləri, eləcə də Zərdabi və "Əkinçi"yə həsr olunan şeirlər yer almışdır.

Göstəricinin "Həsən bəy Zərdabinin əsərləri" bölümündə isə böyük ziyalının 1885-1962-ci illərdə çap olunmuş azərbaycanca və rusca kitablarının, 1875-2010-cu ilə qədər hər iki dildə dərc edilmiş məqalələrinin təsviri verilmişdir.

E.Cavadova Zərdabinin ictimai-siyasi fəaliyyətini tədqiq etmişdir. Müəllifin "Həsən bəy Məlikov Zərdabinin Bakı Şəhər Dumasında fəaliyyəti (1897-1907)" adlı kitabı 2015-ci ildə rusca, 2019-cu ildə isə Azərbaycan dilində nəşr olunmuşdur.

Esmira Cavadovanı 80 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona sağlamlıq və yeni uğurlar arzulayırıq.

**Sona Xəyal**

## Xatirə təqvimi — 21-23 dekabr

### Azərbaycan

**21 dekabr 1913** – Tanınmış şair, tərcüməçi Ələkbər Ziyatay (Ələkbər Həsən oğlu Cəfərov; 1913 – 2.7.1982) Gəncədə doğulub. Bir çox şeirlərinə mahnılar bəstələnib. Rus dilindən ədəbi tərcümələr edib.

**21 dekabr 1916** – Yazıçı, Əməkdar incəsənət xadimi Süleyman Vəli oğlu Vəliyev (1916 – 7.3.1996) Bakının Ramana kəndində doğulub. "Mübahisəli şəhər", "Düyünlər" romanlarının müəllifidir. "Şor cüllütü" povesti əsasında "Qara gölün cəngavərləri" filmi çəkilib.

**21 dekabr 1922** – Ədəbiyyatşünas, yazıçı, Əməkdar elm xadimi Kamran Dadaş oğlu Məmmədov (1922 – 6.4.1989) anadan olub.

**21 dekabr 1923** – Xalq artisti, tanınmış müğənni Tükəzban Məhərrəm qızı İsmayılova (1923 – 24.3.2008) anadan olub. İfaçılıqla yanaşı, pedaqoji fəaliyyət göstərib. Bir çox xarici ölkələrdə qastrollarda Azərbaycan musiqisini təbliğ edib.

**21 dekabr 1923** – Görkəmli tarixçi və şərqşünas, akademik, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadov (1923 – 21.2.1997) Astarada anadan olub. Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutuna rəhbərlik edib. Akademiyanın vitse-prezidenti (1990-1997), Milli Məclisin deputatı (1995-1997) olub.

**21 dekabr 1929** – Mədəniyyət və elm xadimi, fəlsəfə elmləri namizədi Zakir Nəriman oğlu Bağırov (1929 – 31.3.1989) Şuşada anadan olub. 1971-1988-ci illərdə Azərbaycan Respublikasının Mədəniyyət naziri işləyib. Azərbaycan Ali Sovetinin deputatı olub.

**21 dekabr 1952** – Tanınmış rəssam, şair, tərcüməçi Adil Mirseyid (Adil Mirseyid oğlu Baxışov; 1952-2014) anadan olub.

**21 dekabr 1979** – Dövlət xadimi Məmməd Qurban oğlu Qurbanov (1911-1979) vəfat edib. Azərbaycan SSR Mədəniyyət naziri (1955-1960 və 1963-1965), Nazirlər Soveti yanında Kinematoqrafiya Komitəsinin sədri işləyib.

**21 dekabr 2020** – Xalq artisti Safurə Ağabala qızı İbrahimova (27.12.1938 – 2020) vəfat edib. Milli Dram Teatrında çalışıb. "Sevil", "Arşın mal alan", "Qatır Məmməd", "Alma almaya bənzər" və s. filmlərdə çəkilib.

**22 dekabr 1898** – Əməkdar incəsənət xadimi, rejissor, aktyor Ağarza Səməndər oğlu Quliyev (1898 – 15.9.1976) Lənkəranda doğulub. "Qara daşlar", "Səhər", "Ulduz" filmlərinə quruluş verib, filmlərdə çəkilib.

**22 dekabr 1906** – Xalq artisti, xanəndə Əlövsət Şirəli oğlu Sadıqov (1906-1971) anadan olub. 1930-cu ildən Dövlət Opera və Balet Teatrında çalışıb.

**22 dekabr 1911** – Tanınmış jurnalist, pedaqoq Nəsir Əsədulla oğlu İmanquliyev (1911-1998) Bakıda doğulub. "Bakı" və "Baku" qəzetlərinin yaradıcısı və 30 ilə yaxın baş redaktoru, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin professoru olub.

**22 dekabr 1920** – Yazıçı, ssenarist, rejissor, Xalq artisti Həsən Mehdi oğlu Seyidbəyli (1920 – 25.6.1980) Bakıda doğulub. "Uzaq sahillərdə" (İ.Qasımovla birgə), "Cəbhədən cəbhəyə" romanlarının, pyeslərin müəllifidir. "Telefonçu qız", "Bizim Cəbiş müəllim", "Nəsimi" filmlərinə quruluş verib. Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri olub.

**22 dekabr 1934** – Xalq artisti İbrahim Əhməd oğlu Məmmədov (Bənəniyarlı; 1934 – 9.9.2014) Naxçıvan MR Culfa rayonunun Bənəniyar kəndində doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**22 dekabr 1937** – Tarixçi, etnoqraf, AMEA-nın müxbir üzvü Arif Akim oğlu Abbasov (1937 – 21.4.2005) Naxçıvanda doğulub.

**22 dekabr 1939** – Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Rauf Əbdüləli oğlu İsmayılov (1939–2019) dünyaya gəlib. Milli Məclisin Təhsil, elm, din və mədəniyyət məsələləri daimi komissiyasının sədri olub.

**22 dekabr 1993** – Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə "Azərkinovideo" İstehsalat Birliyinin nəzdində Azərbaycan Dövlət Film Fondu yaradılıb. 2001-ci ildə "Azərkinovideo" ləğv edilib və funksiyaları, tabe müəssisələri Mədəniyyət Nazirliyinə verilib.

**22 dekabr 2017** – Prezident İlham Əliyev tanınmış bəstəkar, Xalq artisti Elza İbrahimovanın 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**23 dekabr 1911** – Şərqşünas, tərcüməçi, professor, Əməkdar elm xadimi Məmməd Mübariz Əli oğlu Əlizadə (1911 – 9.4.1994) anadan olub. Nizaminin, Xaqaninin tədqiqatçısı olub. Mücirəddin Beyləqaninin şeirlərini farscadan dilimizə tərcümə edib.

**23 dekabr 1913** – Əməkdar artist İmamverdi Salman oğlu Bağırov (1913 – 6.5.1985) doğulub. İrəvan Dövlət Azərbaycan Dram Teatrı, Akademik Milli Dram, Musiqili Komediya teatrlarında çalışıb.

**23 dekabr 1923** – Əməkdar incəsənət xadimi, rejissor Hüseyn Musa oğlu Sultanov (1923 – 30.3.1993) anadan olub.

**23 dekabr 1927** – Əməkdar mədəniyyət işçisi Nəcəf Abbas oğlu Həsənzadə (1927-2012) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında aktyor və rejissor assistenti kimi fəaliyyət göstərib, filmlərə çəkilib.

**23 dekabr 1945** – Əməkdar artist Sadiq Əliabbas oğlu İbrahimov (1945 – 20.8.2010) Bakıda doğulub. Akademik Milli Dram Teatrının aktyoru olub.

**23 dekabr 1946** – Xalq artisti, balerina, Dövlət mükafatı laureatı Çimnaz Məmməd qızı Babayeva (1946 – 23.12.2019) Bakıda doğulub. 1964-1977-ci illərdə Akademik Opera və Balet Teatrının solisti olub, teatrda baletmeyster kimi fəaliyyət göstərib.

**23 dekabr 1976** – Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə sovet kino sənətinin inkişafında xidmətlərinə görə və Azərbaycan kinosunun 60 illiyi ilə əlaqədar olaraq bir qrup kino xadimi təltif olunub. Sovet dövründə Azərbaycan kinosunun tarixi 1916-cı ildən hesablanırdı. Müstəqilik dövründə tədqiqatlar bu tarixin 1898-ci ildən başlandığını sübuta yetirdi.

**23 dekabr 1986** – Əməkdar artist Qurban Baxşəli oğlu Mirzəyev (1920-1986) vəfat edib. Ağdam Dövlət Dram Teatrının aktyoru olub.

**23 dekabr 2011** – Prezident İlham Əliyev dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

### Dünya

**21 dekabr 1639** – Fransız dramaturqu Jan Rasin (Jean-Baptiste Racine; 1639 –21.4.1699) anadan olub. "İfigeniya", "Fedra" kimi dramları dünyanın bir çox teatrlarında səhnəyə qoyulub.

**21 dekabr 1840** – Türk şairi və yazıçısı, teatr xadimi Namiq Kamal (1840 – 2.12.1888) anadan olub. Əsərləri: "İntibah", "Cezmi", "Şah", "Vətən yaxud Silistre" və s.

**21 dekabr 1917** – Alman yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1972) laureatı Henrix Böll (Heinrich Theodor Böll; 1917 – 16.7.1985) anadan olub. Əsərləri: "Saat onun yarısında bilyard", "Klounun gözü ilə", "Mələk susurdu", "Əsgər mirası" və s.

**22 dekabr 1858** – İtalyan bəstəkarı Cakomo Puççini (Giacomo Puccini; 1858 – 29.11.1924) anadan olub. "Bohema", "Toska", "Madam Batterflyay" operalarının müəllifidir.

**22 dekabr 1937** – Rus yazıçısı Eduard Uspenski (1937-2018) anadan olub. Uşaqlar üçün populyar əsərlərin ("Timsah Gena və dostları", "Fyodor dayı, it və pişik") müəllifidir.

**23 dekabr 1858** – Görkəmli rus rejissoru, dramaturq, Moskva Bədaye Teatrının qurucularından Vladimir İvanoviç Nemiroviç-Dançenko (1858-1943) anadan olub.

**23 dekabr 1931** – SSRİ Xalq artisti Lev Konstantinoviç Durov (1931 – 20.8.2015) anadan olub. "Azərbaycanfilm"də "Qorxma, mən səninləyəm!" (San Sanıç) filmində çəkilib.

**Hazırladı: V.Orxan**

№94 (1967)
21 dekabr 2022
www.medeniyyet.az




# "Mərmər soyuğu" filmi Almatıda mükafat qazanıb

Rejissor Asif Rüstəmov "Mərmər soyuğu" filmi ilə 12-18 dekabr tarixlərində Qazaxıstanın Almatı şəhərində keçirilən 16-cı Avrasiya Beynəlxalq Film Festivalında mükafat qazanıb. O, festivalın "Ən yaxşı rejissor" nominasiyasının qalibi olub.

Xatırladaq ki, bundan öncə film "PÖFF Tallinn Black Nights" festivalında da mükafata layiq görülüb. Xalq artisti Qurban İsmayılov filmdəki roluna görə "Ən yaxşı aktyor" nominasiyasında təltif olunub.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Azərbaycanfilm" kinostudiyası, İctimai TV, Bakı Media Mərkəzi və Fransanın "Arizona Films" şirkətinin birgə istehsalı olan "Mərmər soyuğu" uğursuz rəssamla sevgilisinin qarışıq münasibətlərindən bəhs edir. Məhbəsdən evə qayıdan ata ən radikal yollarla oğlunun həyatına müdaxilə etməyə çalışır...

Filmin baş prodüseri Arzu Əliyeva, ssenari müəllifləri Asif Rüstəmov və Roelof Jan Minneboo (Hollandiya), quruluşçu rejissoru Asif Rüstəmov, təsvir rejissorları Oktay Namazov və Adil Abbasov, quruluşçu rəssamı Rafiq Nəsirov, geyim rəssamı Şahin Həsənli, qrim rəssamı Elbrus Vahidov, prodüseri Fariz Əhmədov, yaradıcı prodüseri İradə Bağırzadədir. Əsas rolları Elşən Əsgərov, Natəvan Abbaslı və Xalq artisti Qurban İsmayılov ifa ediblər.

# Sənətçilərimiz Minsk Milad Opera Forumunda

Xəbər verdiyimiz kimi, 13-18 dekabr tarixlərində keçirilən XII Minsk Beynəlxalq Milad Opera Forumunda azərbaycanlı sənətçilər – Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru, Əməkdar artist Əyyub Quliyev və Sankt-Peterburq Mariinski Teatrının solisti Məhərrəm Hüseynov da iştirak ediblər.



Belarusun Böyük Teatrı təşkil etdiyi ənənəvi sənət bayramında dünya klassik musiqisinin incilərindən P.Çaykovskinin "Yevgeni Onegin", C.Puççininin "Turandot", C.Rossininin "İpək nərdivan", Q.Donisettinin "Sevgi şərbəti" operaları nümayiş olunub.

Dekabrın 14-də "Helikon-Opera"nın (Moskva) təqdimatında "Turandot" operasını dirijor Ə.Quliyev idarə edib. 16 dekabrda isə Belarus Böyük Teatrının "Sevgi şərbəti" tamaşasında Dulkamara partiyasını Məhərrəm Hüseynov ifa edib.

Əyyub Quliyev bildirib ki, "Turandot" tamaşasında əsas partiyaları "Helikon-Opera"nın solisti İvan Qınqazov (tenor) və Belarus Böyük Teatrının aparıcı solistlərindən soprano Anastasiya Maleviç (Turandot) ifa ediblər. Ən mürəkkəb səhnə əsərlərindən olan "Turandot" operasında möhtəşəm orkestr və xorla bərabər, səhnəarxası nəfəs alətləri orkestri, uşaq xoru, ekzotik zərb alətləri və rəqs qrupu da yer alıb. Qısa zamanda baş tutan məşqlərə baxmayaraq tamaşaçılar ifaçıları ayaqüstə alqışlayıblar. Azərbaycanlı dirijor və baş rolların ifaçıları Milad Opera Forumunun diplomları ilə təltif olunublar.

Azərbaycanlı bas-bariton Məhərrəm Hüseynovun baş rolda çıxış etdiyi Q.Donisettinin "Sevgi şərbəti" operası da tamaşaçıların sürəkli alqışlarını qazanıb.

Məhərrəm Hüseynov XII Minsk Beynəlxalq Milad Opera Forumunun qala-gecəsində də səhnəyə çıxıb. O, Özbəkistandan məşhur tenor Ramiz Usmanov, "Metropolitan-Opera"nın (ABŞ) solisti Kristian Benedikt və digər opera teatrlarından dəvət olunmuş vokalçılarla birlikdə çıxış edib.

# Bakı Dövlət Sirkində "Güzgülər dünyası"

Xəbər verdiyimiz kimi, dekabrın 17-də Bakı Dövlət Sirkində "Güzgülər dünyası" adlı sirk proqramı başlanıb. Qış mövsümünün ilk proqramı tamaşaçılara Yeni il ərməğanı olacaq.

Proqramın ilk nümayişi zamanı mediaya açıqlama verən Bakı Dövlət Sirkinin direktor vəzifəsini icra edən Nahid Ağayev diqqətə çatdırıb ki, artıq sirk ilin bütün fəsillərində maraqlı, rəngarəng layihələr təqdim edir.

Nahid Ağayev bildirib ki, budəfəki Yeni il layihəsinin əvvəlki layihələrdən fərqli özəllikləri var. "Güzgülər dünyası" proqramı maraqlı süjet xətti və performanslarla yadda qalacaq. Müasir sirk nümunələrini nümayiş etdirməyi qarşısına məqsəd qoyan Bakı Dövlət Sirki hazırladığı budəfəki şouda yeni dekorasiyalarla, fərqli musiqi tərtibatı və işıq effektləri ilə tamaşaçıların görüşünə gəlib.

"Güzgülər dünyası" proqramının hekayəsində şər qüvvələrlə xeyirxah şahzadənin mübarizəsindən bəhs edilir. Bundan başqa, Bakı Dövlət Sirki uzun illərdən sonra Qarabağ atlarının çıxışı ilə milli sirk nömrəsi də hazırlayıb. Proqramların təşkilatçısı azərbaycanlı sirk ustası Allahverdi İsrafilovdur.




Musiqili rəqs şouları, hava gimnastlarının qeyri-adi tryukları, klounların yumor dolu çıxışları, balet şousu və transformasiya illüziyası kimi nömrələrlə zəngin olan sirk şousuna baxmaq istəyənlərin nəzərinə çatdırırıq ki, proqram yanvarın 8-dək davam edəcək.



# Azərbaycanda qış turizmi mövsümü başlanıb

## Yetərincə qar yağmasa da, xizək sürmək olar...

Dövlət Turizm Agentliyi (DTA) dekabrın 18-də Azərbaycanda qış turizmi mövsümünün açılışı münasibətilə "Şahdağ" Turizm Mərkəzinə mediatur təşkil edib.

Mediatur çərçivəsində Azərbaycanda qış turizminin imkanları, DTA-nın bu sahədə gördüyü işlər, eləcə də "Şahdağ" Turizm Mərkəzinin fəaliyyəti və potensialı ilə bağlı təqdimat keçirilib.

Azərbaycan Turizm Bürosunun Turizm məhsulu sektorunun müdiri Günel Bədəlova ölkədə fəaliyyət göstərən qış turizm mərkəzləri üzrə statistik göstəricilər, xizəkçilik imkanları, qış turizm komplekslərində mövcud qış əyləncələri və digər turizm məhsulları haqqında məlumat verərək, 2023-cü il üçün görüləcək işlər və planlar barədə danışıb.

"Şahdağ" Turizm Mərkəzinin direktor Rüstəm Nəcəfov kompleksdə aparılan yenidənqurma və infrastruktur işləri, buradakı hotellər və digər turizm obyektlərinin fəaliyyəti, qonaqlara təklif olunan əyləncə növləri və gələcək planlar haqqında ətraflı məlumat verib.

Hələlik ölkənin digər dağlıq rayonları kimi, Şahdağda da yetərincə qar yağmasa da, süni qaryağdıran qurğuların köməyi ilə mərkəzdə xizək sürmək imkanları var.

# 37 santimetr boyu, 6,2 kiloqram çəkisi



## İtalyan heykəltəraşın dizayn verdiyi kubok əlli ildir başdan başa keçir

20 noyabr – 18 dekabr tarixlərində Qətərdə keçirilən futbol üzrə 22-ci Dünya Çempionatının sevinən tərəfi Argentina yığması oldu. Komandanın kapitanı Lionel Messi beşinci dəfə qatıldığı mundialda qızıl kuboku başı üzərinə qaldırmağı bacardı. 1978 və 1986-cı illərdə də mundialın qalibi olmuş Argentina üçqat dünya çempionu kimi adını tarixə (beşqat çempion Braziliya (1958, 1962, 1970, 1994, 2002), dörd dəfə çempionluğu yaşamış İtaliya (1934, 1938, 1982, 2006) və Almaniyadan (1954, 1974, 1990, 2014) sonra) yazdırdı.

Ümumiyyətlə, futbol üzrə dünya çempionatlarının 1930-cu ildən başlanan tarixində (1942 və 1946-cı illərdə keçirilməyib) cəmisi səkkiz ölkə qızıl kubokun sevincini yaşayıb. Yuxarıda qeyd olunan dörd böyükdən savayı, Uruqvay (1930, 1950) və Fransa (1998, 2018) iki dəfə, İngiltərə (1966) və İspaniya (2010) hərəyə bir dəfə dünya çempionu olub.

Dünya çempionatını qazanan komandaya mükafatlandırma mərasimində verilən simvolik kubok və onun surətləri İtaliyada hazırlanır. İkinci Dünya müharibəsi dövrü istisna olmaqla, 1930-cu ildən etibarən FIFA tərəfindən hər 4 ildən bir təşkil edilən futbol üzrə dünya çempionatının 22-cisinə bu il Qətər ev sahibliyi edib.

İndiyədək təşkil olunan 22 çempionatda iki fərqli dizayna malik kubok istifadə edilib. 1930-cu ildə Uruqvayda keçirilən ilk dünya çempionatında qalib komandaya fransalı heykəltəraş Abel Lafleur tərəfindən hazırlanmış və qədim Zəfər ilahəsi Nikenin təsviri olan kubok verilib. Bu dizayndakı kubok təxminən 40 il istifadə olunub. Bu kubok 1970-ci ildə Meksikada keçirilən və Braziliyanın 3-cü dəfə çempion olduğu mundialdan sonra "üçqat çempion olan komanda kuboku almaq hüququna malikdir" qaydasına əsasən, Cənubi Amerika ölkəsinin muzeyinə verilib.

1970-ci ildəki çempionatdan sonra FIFA yeni dizaynda kuboku müəyyən etmək üçün beynəlxalq müsabiqə keçirib və bu yarışmaya 53 dizayn təqdim edilib. İtalyan heykəltəraş, "GDE Bertoni" şirkətinin art-direktoru Silvio Gazzaniganın orijinal dizaynı müsabiqənin qalibi olub. Onun dizayn verdiyi, əlləri ni havaya qaldıran iki zəfər mələyinin tutduğu Yer planetinin təsviri olan kubok ilk dəfə 1973-cü ildə nümayiş olunub, 1974-cü ildə Almaniyada keçirilən çempionatda qalib komandaya – ev sahibinə təqdim edilib.

Bu unikal dizaynlı kubok son 50 ildə İtaliyanın Milan şəhəri yaxınlığındakı Paderno Dugnanodakı müəssisələrdə istehsal olunur. Kubokun hündürlüyü 37 santimetr, çəkisi 6,2 kiloqramdır və 18 karatlıq qızıldan hazırlanır.

Kubokun orijinalı 1974-cü ildən FIFA-da saxlanılır. Orijinal kubok final matçının sonunda keçirilən mərasimdə qalib komandaya təqdim olunur, sonra kubokun altına qalib komandanın adını yazılması üçün "GDE Bertoni" şirkətinə, sonda isə FIFA-ya göndərilir. Qalib komanda orijinal qızıl kuboku deyil, üzərinə adı həkk olunmaqla qızıl-latun ərintisindən hazırlanan nüsxəsini alır.

**V.Kamal**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 105 il əvvəl...

**20 dekabr 1917-ci ildə** sovet dövlətinin təhlükəsizlik orqanı – Əksinqilab və sabotajla mübarizə üzrə Ümumrusiya Fövqəladə Komissiyası ("VÇK") yaradılıb. Komissiyanın sədri Feliks Dzerjinski təyin edilib. Sonralar qurum müxtəlif adlar altında ("OQPU", "NKVD", "KQB") fəaliyyət göstərdi.

### 75 il əvvəl...

**23 dekabr 1947-ci ildə** SSRİ Nazirlər Soveti "Ermənistan SSR-də yaşayan azərbaycanlıların Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul edib. SSRİ Nazirlər Soveti sədrinin müavini, İ.Stalinin "sağ əli" A.Mikoyanın təşəbbüsü ilə qəbul edilən qərara görə, azərbaycanlı əhalinin yerinə xaricdən ermənilər köçürülməli idi. Tarixi yurdunu, ev-əşyaini atıb köçməyə məcbur edilən insanlara ailə başına cəmi 2 ton yük götürməyə icazə verilirdi. Azərbaycanın rəhbəri M.Bağırovun İ.Stalinə müraciətindən sonra bu şərtləri qismən yumşaldan ikinci qərar (10 mart 1948) verildi. 1948-1953-cü illərdə 100 minə yaxın azərbaycanlı Ermənistandan deportasiya edildi. Stalinin ölümündən sonra onların bir qismi geri qayıtsa da, 1988-ci ilin deportasiyası azərbaycanlılara qarşı etnik təmizləməni başa çatdırdı.

### 74 il əvvəl...

**23 dekabr 1948-ci ildə** Tokioda militarist Yaponiyasının keçmiş hərbi rəhbərləri üzərində qurulan beynəlxalq tribunalın qərarı icra olunub. II Dünya müharibəsində yapon ordusuna rəhbərlik etmiş general Hideki Todzio və daha altı yüksəkvəzifəli hərbçi edam edilib.

### 59 il əvvəl...



**21-22 dekabr 1963-cü ildə** Kiprdə yunan silahlı dəstələri türk əhalisinə qarşı basqınlar həyata keçiriblər. Afinanın dəstək verdiyi EOKA təşkilatının silahlıları 100-ə yaxın yaşayış məntəqəsində 360-dan çox türkü qətlə yetiriblər. Bu qırğınlar tarixə "Qanlı Milad" adı ilə düşüb. 1960-cı ildə yunan və türk icmalarının təmsilçiliyi ilə qurulan konfederativ dövlət süqut edib.

### 57 il əvvəl...

**21 dekabr 1965-ci ildə** BMT Baş Assambleyası "Dövlətlərin suverenliyi və müstəqilliyinin qorunması, həmçinin dövlətlərin daxili işlərinə müdaxilənin yolverilməzliyi haqqında" Bəyannamə qəbul edib.

### 33 il əvvəl...

**22 dekabr 1989-cu ildə** Rumıniyada inqilab nəticəsində ölkənin kommunist rəhbəri Nikolae Çauşesku devrilib. Hakimiyyət "Milli Xilas Cəbhəsi"nin əlinə keçib. Paytaxt Buxarestdən qaçan Çauşesku Tırqovişte şəhərində tutulub və dekabrın 25-də tələsik qurulan hərbi məhkəmənin qərarına əsasən, həyat yoldaşı Elena ilə birlikdə edam edildi.

### 31 il əvvəl...



**21 dekabr 1991-ci ildə** Qazaxıstanın Almatı şəhərində Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında Bəyannamə imzalanıb. Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Azərbaycan, Ermənistan və Moldova 8 dekabrda Rusiya-Ukrayna-Belarus üçlüyünün imzaladığı "Belovejsk sazişi"nə (SSRİ-yə xitam verilməsi) qoşulublar. Azərbaycanda parlament Almatıda Bəyannaməsini ratifikasiya etmədi və ölkəmiz iki il sonra, 1993-cü ilin 24 sentyabrında MDB-yə üzv oldu. Həmin ilin dekabrında Gürcüstan da MDB-yə qoşuldu.

### 30 il əvvəl...

**22 dekabr 1992-ci ildə** Azərbaycan parlamenti (Ali Sovetin Milli Şurası) dövlət dili haqqında qanun qəbul edib. Qanunda dövlət dilinin "türk dili" kimi qeyd edilməsi alimlər arasında və cəmiyyətdə ziddiyyət doğurdu. 1995-ci ildə qəbul edilən Konstitusiyada dövlət dilinin adı "Azərbaycan dili" olaraq təsbit olundu.

### 23 il əvvəl...

**21 dekabr 1999-cu ildə** Yeni Azərbaycan Partiyasının I qurultayında millət vəkili, ARDNŞ-nin 1-ci vitse-prezidenti İlham Əliyev YAP sədrinin müavini seçilib. 2001-ci ildə partiyanın növbəti qurultayında İlham Əliyev YAP sədrinin 1-ci müavini seçildi. 2005-ci ildən partiyanın sədridir.

### 17 il əvvəl...

**23 dekabr 2005-ci ildə** Bakı-Aktau (Qazaxıstan) reysini yerinə yetirən AN-140 təyyarəsi havaya qalxdıqdan bir neçə dəqiqə sonra qəzaya uğrayaraq Xəzər sahilində yerə düşüb. Təyyarədə olan 23 nəfər (18 sərnişin, 5 ekipaj üzvü) həlak olub. Onların 15-i Azərbaycan, 8-i xarici ölkə vətəndaşları idi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya** № AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5078. **Sifariş:** 3750
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641